## Xəzərdə balıqçı qayığı aşıb, bir nəfər ölüb



**Xəzər dənizinin Xaçmaz sahilində balıqçı qayığı aşıb.**

APA-nın şimal bürosunun verdiyi məlumata görə, hadisə Nabran kəndi ərazisində qeydə alınıb. Balıq tutmaq məqsədilə suya girən balıqçı qayığı sahildən 150 metr aralıda aşıb. Qayıqda olan 4 nəfərdən 3-ü üzərək sudan çıxıb. Şabran rayon sakini, 1961-ci il təvəllüdlü Yusif Sultanov isə boğulub.

Faktla bağlı araşdırmalar aparılır.



## Nərgiz Paşayeva "Şərəf" ordeni ilə təltif edildi

**Prezident İlham Əliyev N.A.Paşayevanın "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamla Azərbaycan Respublikasında elm və təhsilin inkişafında böyük xidmətlərinə görə Nərgiz Arif qızı Paşayeva "Şərəf" ordeni ilə təltif edilir.


№ 228 (5749), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 14 dekabr 2022-ci il (çərşənbə)




# "Ekoloji terrora son!"

### Şuşa-Laçın yolunun üzərində Azərbaycan bayraqları dalğalandırılıb

**Şuşa-Laçın yolunun üzərində Azərbaycan bayraqları dalğalandırılıb.**

Trend-in müxbirinin məlumatına görə, bayraqlar aksiya iştirakçılarının şüarları ilə kran vasitəsilə yüksəkliyə qaldırılıb. Nümayişçilər "Yaşasın Azərbaycan!", "Ekoloji terrora son!" şüarları səsləndirilir.

Qeyd edək ki, Azərbaycanın qeyri-hökumət təşkilatlarının (QHT) nümayəndələrinin Qarabağda Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyəti zonasında keçirilən etiraz aksiyası ikinci gündür ki, davam edir.

Onlar azərbaycanlı mütəxəssislərin Azərbaycan yataqlarının qanunsuz istismarı ilə bağlı monitorinq aparmaq üçün əraziyə buraxılmamasına etiraz edirlər.



# "Laçın yolu Rusiya sülhməramlı kontingenti tərəfindən bağlanıb"

### Prezidentin köməkçisi: "Ruben Vardanyanın Azərbaycanın təbii sərvətlərini talan etməsinə imkan verilməyəcək"








**Dünən Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyevin və Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Elnur Məmmədovun iştirakı ilə Azərbaycanda akkreditə olmuş diplomatik korpusun nümayəndələri və hərbi attaşelər üçün brifinq keçirilib.**

XİN-dən "Şərq"ə verilən xəbərə görə, brifinq zamanı, Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində təbii sərvətlərin qeyri-qanuni istismarı, habelə ekoloji vəziyyətin pisləşməsi ilə bağlı ilkin monitorinq məqsədilə Azərbaycan Respublikası dövlət qurumlarının nümayəndələrinin və mütəxəssislərin əraziyə girişinə maneçilik törədilməsi nəticəsində Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin və ekoloqların etirazı ilə bağlı yaranmış vəziyyət barədə iştirakçılara ətraflı məlumat verilib.

(səh.2)

## XİN rəhbərləri yaxın həftələrdə görüşəcək

### Ceyhun Bayramov: "Ümid edirik ki, tərəfimizdən sülh məqsədilə atılan addımlar nəhayət ki, Ermənistan tərəfindən praktiki fəaliyyətlə cavablandırılacaqdır"

**Yaxın həftələrdə Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında görüşün keçirilməsi nəzərdə tutulur.**

**Bu fikirləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov dekabrın 13-də Azərbaycan Respublikası, Türkiyə Respublikası və Türkmənistanın xarici işlər nazirlərinin iclasında söyləyib.**

Nazir qeyd edib ki, Azərbaycan Ermənistanla bir-birinin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığının qarşılıqlı olaraq tanınması və hörmət edilməsi əsasında ikitərəfli münasibətlər qurmaq, münaqişə səhifəsini qarşılıqlı faydalı əməkdaşlıq, normal qonşuluq münasibətləri ilə əvəz etmək niyyətində qətiyyətlidir.

(səh.2)

## Ərdoğan zamanı sirr saxlayır

### "Suriyada quru əməliyyatının nə zaman və harada keçiriləcəyini açıqlamayacağıq"



**Türkiyə Suriya ərazisində quru hərbi əməliyyatının nə zaman və harada həyata keçirəcəyini açıqlamaq niyyətində deyil.**

APA-nın İstanbul müxbiri xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Avazaya səfəri öncəsi jurnalistlərə açıqlamasında bildirib.

O qeyd edib ki, terrorla mübarizə məsələləri Türkiyə və Rusiya arasında imzalanan Soçi memorandumu ilə müəyyən edilib və Türkiyə lideri məsələ ilə bağlı rusiyalı həmkarını telefon danışığı zamanı bir daha məlumatlandırıb.

Ərdoğan, həmçinin, əlavə edib ki, ölkəsi artan terror təhlükəsinə qarşı səssiz qalmayacaq və terrorla mübarizədə Rusiya tərəfindən yardım istəyib.

# Aksiyaçılar Volkovu tələb edirlər

### Beynəlxalq ictimaiyyət Şuşa-Xankəndi yolundakı dinc etiraz aksiyasını dəstəkləməlidir



**Azərbaycanlı eko-fəallar və QHT təmsilçilərinin Şuşa şəhərində - Laçın yolunda etiraz aksiyası davam edir.**

Ərazidə çadırlar quraraq aksiyanı gecə boyunca davam etdirən fəallar Rusiya sülhməramlı kontingentinin komandanı general-mayor Andrey Volkovun əraziyə gəlməsini və onlarla görüşməsini tələb edirlər. Yaranmış gərginliyə, Laçın yolunun bloklanmasına baxmayaraq, rusiyalı general eko-fəallarla görüşməməkdə hələ də israr edir.

(səh.3)



## Savaş uzanacaq

### Şərtlər sülhdən çox müharibənin mesajını verir

**Ukrayna prezidenti müharibəni dayandırmaq üçün 10 kritik addımı nəzərdə tutan sülh formulunu təqdim edib.**

Prezident ofisinin rəhbəri Andrey Yermak diplomatlara planı təşkil edən məqamlar barədə ətraflı məlumat verib. Vurğulayıb ki, Ukrayna bütün beynəlxalq görüşlərdə, dəyirmi masalarda sülh formulunu təbliğ edir.

Onun sözlərinə görə, Ukraynanın sülh formulu elə qurulub ki, müharibəyə son qoyulsun və təcavüzün təkrarlanması, ərazilərin ələ keçirilməsi, həmçinin nüvə, ərzaq şantajı və ətraf mühitə ziyan vurulması mümkünsüz olsun...

(səh.5)

## Şəmkirdə 31 yaşlı qadın 3 aydır itkin düşüb



**Şəmkirdə itkin düşən şəxs axtarılır.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Gəncə regional qrupundan "Şərq"ə verilən məlumata görə, Şəmkir rayon sakini, 1991-ci il təvəllüdlü Aygül Hüseynova sentyabr ayının 23-də səhər saatlarında yaşadığı evdən çıxaraq bir daha geri qayıtmayıb.

A. Hüseynovanın əlamətləri belədir: boyu 160 sm, arıq bədən quruluşludur, qara, uzun saçları var. Evdən çıxarkən onun əynində qara rəngli kofta, göy rəngli cins şalvar və olub.

Şəkildə gördüyünüz şəxsi tanıyanlardan və barəsində məlumatı olanlardan DİN-in "102 Zəng Mərkəzi" Xidmətinə, həmçinin 022-305-28-02 şəhər və (050) 341-05-58 mobil nömrəsinə zəng vuraraq məlumat verməléri xahiş olunur.

## 2 nəfər vəfat edib

### 64 yeni yoluxma faktı qeydə alınıb



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 64 yeni yoluxma faktı qeydə alınıb, 60 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 2 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 824 943 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 814 584 nəfər müalicə olunaraq sağalıb, 9 989 nəfər vəfat edib, aktiv xəstə sayı 370 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 779, hazırkı dövrədək isə 7 398 046 test aparılıb.*



## "Rus sülhməramlıları etirazçılara müdaxilə edə bilməz"

### Turan Rzayev: "Bu baş versə, Azərbaycan tərəfinin də müdaxilə edəcəyini yaxşı bilirlər"

(səh.3)



## "Bu dəfə Şuşada silahsız vuruşuruq"

### Qulu Ağsəs: "Xankəndidəki ermənilər artıq azərbaycanlıların ayaq səslərini eşidir"

(səh.4)



# "Azəri-Mərkəzi-Şərqi" platforması dənizə yola salındı

## Prezident İlham Əliyev deyib ki, Azərbaycanın potensialına dair böyük gözləntilər var

**Prezident İlham Əliyev dekabrın 13-də Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda "Azəri-Mərkəzi-Şərqi" platformasının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib.**

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz və Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf dövlət başçısına layihə üzrə görülən işlər barədə məlumat veriblər, sonra videoçarx nümayiş olunub. Bildirilib ki, "Azəri-Mərkəzi-Şərqi" layihəsi üzrə yekun investisiya qərarı "Azəri-Çıraq-Günəşli" üzrə Hasilatın Pay Bölgüsü Sazişinin 2049-cu ilə qədər uzadılmasından sonra AÇG tərəfdaşlarının ilk böyük investisiya qərarıdır. Dəyəri 6 milyard dollar olan layihəyə yeni dəniz platforması və gündəlik 100 min barelədək hasilat gücündə digər qurğular daxildir. Layihənin istismar müddəti ərzində, ümumilikdə, 300 milyon barelədək neft hasil olunacağı proqnozlaşdırılır. Bu layihə çərçivəsində dənizdə suyun dərinliyi təxminən 140 metr olan sahəsində, "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında 48 şaxtadan ibarət yeni hasilat, qazma və yaşayış platforması quraşdırılacaq. Layihəyə həmçinin yataqdaxili yeni sualtı boru kəmərləri də daxildir. Bu xətlər platformadan hasil ediləcək neft və qazın Səngəçal terminalına ötürülməsi üçün mövcud AÇG "Faza 2" sualtı ixrac kəmərlərinə qoşulacaq. "Azəri-Mərkəzi-Şərqi" platformasının dayaq blokunun çəkisi 16 min ton, hündürlüyü 153 metrdir. Bu qurğuya biri suvurma, biri neft ixracı, biri də qaz ixracı üçün nəzərdə tutulmuş üç dik boru daxildir. Dayaq bloku suyun 137 metr dərinliyində quraşdırılacaq.

Prezident İlham Əliyev bunun ən böyük nailiyyətlərdən biri olduğunu deyib. Dövlət başçısı bildirib ki, bir neçə gün əvvəl "Akademik Xoşbəxt Yusifzadə" tankerini istismara verərkən, faktiki olaraq bütün gələcəyimizə, neft-qaz layihələrinə mühüm töhfə vermiş bu ərazinin, zavodun keçmişi ilə bağlı xatirələri də bölüşüb: "Çünki əgər o, 1970-1980-ci illərin sonunda yaradılmasaydı, hasilata başlamaq daha çox vaxt aparardı". Ölkə rəhbəri qeyd edib ki, Azərbaycanın potensialına dair böyük gözləntilər var: "Biz həmişə bilirdik bizim nə qədər ehtiyatımız var. Ümid edirəm ki, qazmaya başlayanda "Azəri-Çıraq-Günəşli"də olduğu kimi, bu yataq da böyüyəcək. Praktik nəticələr ilkin proqnozdan ən azı iki dəfə artıq oldu. Bütün infrastrukturun, daşıma infrastrukturunun hazır olduğunu nəzərə alaraq, hesab edirəm ki, mümkün olduğu qədər çox hasil etmək üçün səy göstərmək baxımından, Azərbaycan xalqına və beynəlxalq tərəfdaşlarımıza xidmət göstərmək üçün bu, həqiqətən də tarixi fürsətdir".

**İsmayıl**

# "Laçın yolu Rusiya sülhməramlı kontingenti tərəfindən bağlanıb"

## Prezidentin köməkçisi: "Ruben Vardanyanın Azərbaycanın təbii sərvətlərini talan etməsinə imkan verilməyəcək"

**Dünən Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyevin və Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Elnur Məmmədovun iştirakı ilə Azərbaycanda akkreditə olmuş diplomatik korpusun nümayəndələri və hərbi attaşelər üçün brifinq keçirilib.**




XİN-dən "Şərq"ə verilən xəbərə görə, brifinq zamanı, Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində təbii sərvətlərin qeyri-qanuni istismarı, habelə ekoloji vəziyyətin pisləşməsi ilə bağlı ilkin monitorinq məqsədilə Azərbaycan Respublikası dövlət qurumlarının nümayəndələrinin və mütəxəssislərin əraziyə girişinə maneçilik törədilməsi nəticəsində Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin və ekoloqların etirazı ilə bağlı yaranmış vəziyyət barədə iştirakçılara ətraflı məlumat verilib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev çıxışı zamanı vurğulayıb ki, Azərbaycanın sözügedən ərazilərində təbii sərvətlərin qeyri-qanuni istismarı dayandırılmalı, bütün təbii sərvətlərin istismarı Azərbaycan Respublikası qanunvericiliyi əsasında həyata keçirilməlidir.

O deyib ki, bütün faydalı qazıntı yataqları, o cümlədən Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarına yerində baxış, qanunsuz istismarın dayandırılması, müxtəlif istiqamətlər üzrə monitorinq və inventarizasiyanın aparılması, əmlakın kadastr uçotunun təşkili, ətraf mühitə, yeraltı və yerüstü su mənbələrinə potensial zərərin və risklərin qiymətləndirilməsi və dəymiş zərərin nəticələrinin aradan qaldırılması məsələləri üzrə işçi qrup yaradılıb.

Cari ilin 3 dekabr tarixindən etibarən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikası ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər törəmə fəsadlar ilə bağlı sülhməramlı kontingentin komandanlığı ilə danışıqlar aparıblar.

Əldə olunmuş razılığa uyğun olaraq, 10 dekabr tarixində faydalı qazıntıların qanunsuz istismar olunduğu bu iki əraziyə Azərbaycan nümayəndələrinin səfər etmək cəhdinə baxmayaraq, bu səfərə maneçilik törədilib.

H.Hacıyev bildirib ki, son iki gün ərzində Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələrinin və ekologiya fəallarının Şuşa-Laçın yolunda həyata keçirdiyi etiraz aksiyası Azərbaycan ictimaiyyətinin haqlı narazılığının göstəricisidir və vətəndaş cəmiyyətinin bu mövqeyinə hörmətlə yanaşılmalıdır.

Ermənistan tərəfinin guya Laçın yolunun bağlanması, bölgədə humanitar fəlakət yaşanması, etnik təmizlənmə həyata keçirilməsi barədə iddiaları çıxış zamanı qətiyyətlə rədd olunub. O, Ermənistan tərəfindən Laçın-Xankəndi yolundan hərbi məqsədlər, minaların və talan olunan təbii sərvətlərin daşınması məqsədilə istifadə edilməsinin qarşısının alınmasının vacibliyini qeyd edib.

Ermənistanın sabiq rəhbərləri R.Köçaryan və S.Sarkisyanın işğal dövründə törətdikləri hərbi cinayətlərinə və qeyri-qanuni iqtisadi əməllərinə toxunan Prezidentin köməkçisi indi də kriminal iş adamı olan Ruben Vardanyanın Azərbaycanın təbii sərvətlərini talan etməsinə və ətraf mühitə ciddi ziyan vurmasına imkan verilməyəcəyini qeyd edib.

Bildirilib ki, Laçın yolu azərbaycanlı etirazçılar tərəfindən deyil, Rusiya Federasiyasının sülhməramlı kontingenti tərəfindən bağlanıb. Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin talan edilmiş təbii sərvətlərin qanunsuz daşınmasının qarşısını almağa çalışdıqlarını, mülki təyinatlı digər nəqliyyat vasitələrinin hərəkəti məsələlərinə qarışmadıqlarını deyib.

Ümumiyyətlə, Ermənistan hökumətinin Azərbaycan əraziləri daxilində baş verən hadisələrə verdiyi şərhlərini Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının hələ də davam etdiyinin göstəricisi olduğunu diqqətə çatdırıb. Bununla yanaşı, belə bəyanatların Ermənistan Baş nazirinin Praqa və Soçidə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət edilməsi üzrə bir daha qəbul etdiyi öhdəliklərə zidd olduğu bildirilib.

**Nazir müavini Elnur Məmmədov çıxışı zamanı Ermənistan tərəfindən Azərbaycan ərazilərinin 30 illik işğalı dövründə ərazilərimizdə faydalı qazıntılar, əlvan və qara metallar, mineral sular, həmçinin digər şirin su resurslarının qanunsuz istismarı və qeyri-qanuni iqtisadi fəaliyyət barədə iştirakçılara məlumat verib.** Bu cür qeyri-qanuni fəaliyyətə bir çox xarici şirkətlərin cəlb olunduğu, onların sırasında "Base Metals" ("Vallex Group"), "GeoProMining", "GoldStar" və digər şirkətlərin adları diqqətə çatdırılıb.

Ermənistan Respublikasının apardığı qeyri-qanuni iqtisadi fəaliyyətin beynəlxalq konvensiyaların tələblərini kobud şəkildə pozduğu və Ermənistan Respublikası üçün hüquqi məsuliyyət yaratdığı bildirilib. Nazir müavini bu çərçivədə, əlvan metalların qeyri-qanuni hasilatını aparan şirkətlərə qarşı görülən hüquqi tədbirlər barədə məlumat verib.

Ermənistanın ekoloji terror siyasəti nəticəsində Azərbaycan ərazisindən keçən Araz çayına axan Oxçuçayda suyun tərkibindəki ağır metalların miqdarının dəfələrlə normadan artıq olduğu vurğulanıb. Ermənistanın işğal zamanı Sərsəng su anbarında su axımını demək olar ki bağlaması, anbardan kanala suyun yalnız qış aylarında daşqın yaratmaq, əraziləri ekoloji terrora məruz qoymaq məqsədilə buraxılması faktları diqqətə çatdırılıb.

Kəlbəcər rayonundakı Söyüdlü, Zəngilan rayonundakı Vejnəli faydalı filiz yataqlarında Ermənistan tərəfindən qanunsuz olaraq qızıl çıxarıldığı, təbii sərvətlərimiz mənimsənildiyi, ətraf ərazilərin çirklənməyə məruz qoyulduğu barədə ətraflı məlumat verilib. Nazir müavini, ATƏT, BMT-nin İnkişaf Proqramı (UNDP), Ətraf Mühit Proqramı (UNEP), Avropa Şurası Parlament Assambleyası (PACE) tərəfindən qəbul olunmuş hesabatlarda və qətnamələrdə keçmiş işğal olunmuş ərazilərimizdə həyata keçirilmiş qeyri-qanuni iqtisadi fəaliyyət, təbii sərvətlərin qanunsuz istismarı faktlarının qeydə alındığını bildirib.

Sözügedən faktlar nəzərə alınaraq, sülhməramlı kontingentin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətin dərhal dayandırılmasının vacib olduğu diqqətə çatdırılıb.

# XİN rəhbərləri yaxın həftələrdə görüşəcək

## Ceyhun Bayramov: "Ümid edirik ki, tərəfimizdən sülh məqsədilə atılan addımlar nəhayət ki, Ermənistan tərəfindən praktiki fəaliyyətlə cavablandırılacaqdır"



**Yaxın həftələrdə Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında görüşün keçirilməsi nəzərdə tutulur .**

**Bu fikirləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov dekabrın 13-də Azərbaycan Respublikası, Türkiyə Respublikası və Türkmənistanın xarici işlər nazirlərinin iclasında söyləyib.**

Nazir qeyd edib ki, Azərbaycan Ermənistanla bir-birinin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığının qarşılıqlı olaraq tanınması və hörmət edilməsi əsasında ikitərəfli münasibətlər qurmaq, münaqişə səhifəsini qarşılıqlı faydalı əməkdaşlıq, normal qonşuluq münasibətləri ilə əvəz etmək niyyətində qətiyyətlidir.

"Bu məqsədlə, iki ölkə arasında qarşılıqlı münasibətlərə dair müqavilənin mətni üzrə növbəti yenilənmiş təkliflər tərəfimizdən qarşı tərəfə təqdim edilib, yaxın həftələrdə iki ölkənin xarici işlər nazirləri arasında müzakirələr üçün növbəti görüşün keçirilməsi nəzərdə tutulur.

Azərbaycanın bu məsələdə də mövqeyi ardıcıl və prinsipialdır, beynəlxalq hüquqa və ədalətə əsaslanır.

Ümid edirik ki, tərəfimizdən sülh məqsədilə atılan addımlar nəhayət ki, Ermənistan tərəfindən zəruri siyasi iradə və praktiki fəaliyyətlə cavablandırılacaqdır. Normallaşma prosesinin məntiqi nəticəyə çatması üçün Ermənistan tərəfindən üzərinə götürülmüş öhdəliklərin təxirə salınmadan icra edilməsi, Azərbaycana qarşı əsassız ərazi iddialarına qətiyyətlə son qoyularaq, normal qonşuluq münasibətlərinin təsis edilməsi üçün əməli addımların atılması mühüm şərtdir".

# Müdafiə Nazirliyində yeni nazir müavini postu yaradılıb



**Müdafiə Nazirliyində struktur dəyişikliyi edilib. APA xəbər verir ki, nazirliyin strukturunda hərbi-texniki təchizat üzrə müavin postu yaradılıb.**

Xəbər verildiyi kimi həmin vəzifəyə Prezident İlham Əliyevin 09.12.2022-ci il tarixli Sərəncamı ilə Qurbanov Aqil Səlim oğlu təyin olunub.

Qeyd edək ki, Qurbanov Aqil Səlim oğlu 15 avqust 1986-cı ildə Bakı şəhərində anadan olub.

2004-2008-ci illərdə Prezident Yanında Dövlət İdarəçilik Akademiyasında bakalavr təhsili alıb. 2012-2014-cü illərdə London İqtisadiyyat və Siyasi Elmlər Məktəbində magistr təhsili alıb. 2015-2019-cu illərdə "PAŞA Holding" MMC-də investisiyalar üzrə direktor olub. Daha sonra "Sumqayıt Texnologiyalar Parkı"nın Müşahidə Şurasının sədri vəzifəsində çalışıb. Ailəlidir. İki övladı var.

## Gömrük Komitəsi rəsmisi deyir ki, bunu dərman satışı ilə məşğul olan şirkətlərdən soruşmaq lazımdır



# İnsanlar narazıdır...

## Dərmanların qiyməti Türkiyədən 7-8 dəfə baha ola bilməz axı!

**"Dərmanların miqdarının müəyyən edilməsi çox vacibdir. Başa düşürəm ki, psixotrop tərkibli dərmanlar var, amma bunları qoyaq bir kənara, insanlar indi xəstəlikdən əziyyət çəkir".**

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında deputat Vahid Əhmədov bildirib. Deputat deyib ki, Ramiz Rövşənin oğlu Konyadan dərmanı 4 manata alıb, burada həmin dərman 27-28 manatdır: "Fərq böyükdür. Başa düşürəm ki, yol xərci, digər xərclər var. Olsun iki dəfə baha. Yoxsa 7-8 dəfə baha ola bilməz axı! İnsanlar ərzağın bahalaşmasına elə də etiraz etmirlər, amma dərman elə bir şeydir ki, insanın sağlamlığı dərmandan asılıdır".

**"Türkiyədə bu dərmanı 15 manata alırlar, burada isə qiyməti 78 manatadır**

**Deputat Ziyad Səmədzadə qeyd edib ki, adambaşına düşən dərman xərclərinə görə Azərbaycan MDB ölkələrindən fərqlənir:** "Xüsusilə şəkər xəstəlikləri üzrə dərmanı qeyd etmək istəyirəm. Türkiyədə bu dərmanı 15 manata alırlar, burada isə qiyməti 78 manatadır. Dərman məsələsi təkcə Dövlət Gömrük Komitəsinin işi deyil, eyni dərmanı gətirən şirkətlərin fəaliyyəti ilə bağlıdır".

**Şəxsi ehtiyaclar üçün xaricdən gətiriləcək dərmanların miqdarı müəyyənləşdirilir**

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən Şahin Bağırov bildirib ki, Azərbaycanda tətbiq olunan qaydalara əsasən, şəxsi ehtiyacların ödənilməsi üçün dərman vasitələrinin gətirilməsinə icazə var**: "Amma hansı miqdarda gətirilə bilər? Əfsuslar olsun ki, bəzi hallarda şəxsi ehtiyacların ödənilməsi norması təmin edilmir. Çünki bəzi dərman növləri var ki, psixotrop və ya narkotik tərkibli olur. Biz başa düşürük ki, insanlar bundan narazı qalırlar. Amma buna diqqət yetirmək lazımdır ki, ölkəyə bütün dərman vasitələri gəlir. Dərmanı idxal edən şirkətlərsə, bu zaman gömrük orqanlarına şikayət edirlər ki, apteklərdə və digər satış yerlərində qeydiyyatdan keçməyən dərman haradan olur? Hər bir halda çalışırıq ki, qanunvericilik normalarına riayət edək. Hökumətin tapşırığı ilə Səhiyyə Nazirliyi ilə birgə zəruri ehtiyacların ödənilməsi üçün dərmanların həddini, miqdarını müəyyənləşdirmək üzrə işlərə başlamışıq. Yaxın vaxtlarda layihə hökumətə təqdim olunacaq".

DGK-nın sədr əvəzi dərmanların qiymətinin baha olmasının səbəblərini açıqlayıb: "Bir çox hallarda gedib dərmanı ölkəyə gətirirlər, biz dərmanı külli miqdarda buraxa bilmirik. İnanın mənə, 2-3 qutu Aspirin gətirənə gömrük əməkdaşı heç bir söz demir. Elə dərmanlar da var ki, onlara baxılmaldır. Qiymət məsələsinə gəlincə, qiymətlər gömrüklə bağlı deyil. Dərmanlara gömrük rüsumu yoxdur, yalnız ƏDV var. ƏDV də elə çox deyil. Dərmanlar ƏDV-dən azad oluna bilər". Şahin Bağırov qeyd edib ki, dərman şirkətləri gətirdikləri dərmanların dərhal anbarlara aparılmasını istəyirlər: "Azərbaycanda dərmanların qiyməti ilə bağlı Taarif Şurası tərəfindən müəyyən olunan hədlər var. Əgər qiymət bu həddən artıqdırsa, o başqa məsələ. Türkiyə ilə Azərbaycan arasında fərq isə ona görədir ki, onlar bir çox dərmanı özləri istehsal edir. Bundan başqa Türkiyə Avropa İttifaqı ilə Gömrük İttifaqındadır. Ona görə də bunu dərman satışı ilə məşğul olan şirkətlərdən soruşmaq lazımdır. Lakin dərman dəyərinin artmasına gömrük orqanlarının heç bir təsiri yoxdur".

**"Gömrük orqanlarının şəffaflaşması əsas vəzifədir, bu yoldan dönən deyiləm"**

**Ş.Bağırov bildirib ki, Dövlət Gömrük Komitəsi qarşısında qoyulan ən əsas vəzifələr gömrük orqanlarının şəffaflaşması, məmnuniyyət səviyyəsinin artırılması, eyni rasional prosedurların tətbiq edilməsi, bərabər imkanların yaradılmasıdır:** "Bu, qarşımıza qoyulan konkret tapşırıqlardır. Fərd olaraq da bu məsələnin yerinə yetiriləcəyinə tam əminəm. Əvvəlki illərdə gördüyüm təcrübə mənə bunu həyata keçirməyə qətiyyətlə imkan verəcək. Bu yoldan heç vaxt dönən deyiləm".

**Şahin Bağırov qeyri-qanuni daşımaların qarşısını almağı əsas vəzifə sayıb**

**Şahin Bağırov vurğulayıb ki, biznes nümayəndələri, biznesin formalaşmasında rolu olan ixracatçı və idxalçılar əvvəlcədən bəlli prosedurların olmasını məsələ kimi ortaya qoyurlar:** "Burada çərçivələrin müəyyən edilməsi vacibdir. Hesab edirik ki, bu, hər iki tərəfin, xüsusilə gömrük orqanlarının üzərinə böyük məsuliyyət qoyur. Gömrük orqanlarının əsas fəaliyyəti gömrük ödənişlərinin yığılmasının nəzərdən keçirilməsi olmamalıdır. Mən də belə düşünürəm ki, gömrük orqanları daha çox vergi ticarətinin dəstəklənməsinə və hüquq-mühafizə fəaliyyətinə istiqamətlənməlidir ki, ölkəmizə qeyri-qanuni daşımaların qarşısını alsın".

**İsmayıl Qocayev**



# Aksiyaçılar Volkovu tələb edirlər

**Azərbaycanlı eko-fəallar və QHT təmsilçilərinin Şuşa şəhərində - Laçın yolunda etiraz aksiyası davam edir. Ərazidə çadırlar quraraq aksiyanı gecə boyunca davam etdirən fəallar Rusiya sülhməramlı kontingentinin komandanı general-mayor Andrey Volkovun əraziyə gəlməsini və onlarla görüşməsini tələb edirlər. Yaranmış gərginliyə, Laçın yolunun bloklanmasına baxmayaraq, rusiyalı general eko-fəallarla görüşməməkdə hələ də israr edir.**

Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 2020-ci ilin 10 noyabrında imzaladığı üçtərəfli bəyanata əsasən, bölgəyə müvəqqəti yerləşdirilən Rusiya sülhməramlılarının əsas vəzifələrindən biri məsuliyyət zonasında yaranmış mürəkkəb vəziyyətlərin aradan qaldırılmasına yardım etmək, bölgədə davamlı sülh və əmin-amanlığın bərqərar olmasına töhfə verməkdir. Lakin general Volkovun Laçın yolunda dinc aksiyaçılarla görüşdən qaçması sülhməramlıların fəaliyyətinə dair əsaslı şübhələri daha da gücləndirir. Bu onu göstərir ki, Andrey Volkov gərginliyin aradan qaldırılmasında maraqlı deyil. Əksinə, aksiyanın davam etməsini, humanitar məqsədlər üçün ayrılmış Laçın dəhlizinin qapalı qalmasını, ermənilərlə azərbaycanlılar arasında anlaşmazlıqların davam etməsini istəyir. Yaxın həftələrdə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsi planlaşdırılıb. Hazırkı gərginliklər fonunda baş tutacaq görüşün sülh və sabitliyin möhkəmləndirilməsi istiqamətində effektivliyi nəzərəçarpacaq dərəcədə azala bilər. Ümumiyyətlə, Azərbaycan ərazilərinə müvəqqəti yerləşdirilmiş sülhməramlılardan gözlənti separatçılar üçün qalxan rolu oynamaq deyildi. Onların vəzifəsi məsuliyyət daşıdıqları bölgədə hər kəsi, bütün mülki şəxsləri qorumaq, dincliyin, sabitliyin və sülhün saxlanılmasına töhfə verməkdir. Lakin xüsusilə də son günlər şahidi olduğumuz hadisələr bunun tam əskini göstərir. Son proseslər fonunda sülhməramlıların bölgədə separatçı fəaliyyətlərin hamisinə və qarantına çevrildiyi hiss olunur. Bu qərəz nəinki sülhə xidmət edir, hətta tərəflər arasında ədavəti dərinləşdirir, yaraların sağalmasına imkan vermir. Sülhməramlılar mülki monitorinqin həyata keçirilməsinin qarşısını alanlara faktiki olaraq heç bir şəkildə mane olmadılar. Əksinə, kənara çəkilərək, Azərbaycanın dövlət rəsmilərini yerli ermənilərlə üz-üzə qoydular və təxribat üçün açıq şərait yaratdılar.

## Beynəlxalq ictimaiyyət Şuşa-Xankəndi yolundakı dinc etiraz aksiyasını dəstəkləməlidir






### "Qızılbulaq" və "Dəmirli" yataqlarından qanunsuz istifadə dayandırılmalıdır"

Prezidentin köməkçisi Hikmət Hacıyev də Şuşa-Laçın yolundakı son vəziyyətdən danışıb. H.Hacıyev qeyd edib ki, lazımsız propaqanda və yanlış məlumatların yayıldığını görürük: "İşğal dövründə Azərbaycanın ətraf mühitinə ziyan dəyib, təbii resursları qanunsuz şəkildə istismar olunub. Bu, indi də Rusiya sülhməramlılarının nəzarətində olan ərazilərdə müşahidə olunur. Biz "Qızılbulaq" və "Dəmirli" faydalı qazıntı yataqlarının qeyri-qanuni istismarının intensivləşdiyini müşahidə etdik. Bu məsələ Azərbaycanın müvafiq qurumları tərəfindən araşdırıldı və Müdafiə Nazirliyi Qarabağdakı Rusiya sülhməramlılarının komandanlığına müraciət etdi. İlk görüş Rusiya sülhməramlılarının rəhbərliyi ilə Xocalıda baş tutdu və dekabrın 10-da müvafiq qurumların "Qızılbulaq"da monitorinqinin aparılması razılaşdırıldı. Bu qeyri-qanuni fəaliyyət dayandırılmalı, ətraf mühitə dəymiş zərər qiymətləndirilməli və müvafiq proqram hazırlanmalıdır".

### "Rus sülhməramlıları aksiyanı dayandırmayacaqlarını deyiblər"

Rusiya sülhməramlıları aksiya keçirilən ərazidə modul tipli kazarmalar quraşdırmağa başlayıb. Onlar əraziyə gətirilmiş konteynerləri yük maşınından boşaldaraq, yolda quraşdırıblar. Bundan əlavə, yayılan məlumata görə, Laçın dəhlizində azərbaycanlı eko-fəalların keçirdiyi aksiyada danışıq üçün Xankəndidəki separatçı rejimin nümayəndələri də tərəf kimi iştirak etmək istəyiblər. Lakin Azərbaycanın Qarabağ iqtisadi zonasında müvəqqəti yerləşdirilən rus sülhməramlıları separatçıların danışıq tələbini qəti şəkildə rədd ediblər. Onlar bildiriblər ki, bu həm də azərbaycanlıların tələbidir. Ermənistanın "Hraparak" qəzeti məlumat yayıb ki, aksiya iştirakçıları ilə qondarma rejimin "təhlükəsizlik şurasının katibi" Vitali Balasanyan və Xankəndidə olan separatçılar danışmaq istəyiblər: "Onların istəyi rədd edilib və ümumiyyətlə, aksiya istiqamətinə getməyə icazə verilməyib". Rus sülhməramlıları isə aksiyanı zorla dayandırmayacaqlarını deyiblər. "Yuxarıdan" göstəriş aldıqdan sonra nə edəcəyimizi biləcəyik". Xatırladaq ki, ötən gün Xankəndidə özlərini "deputat" adlandıran bir qrup terrorçu aksiya keçirilən əraziyə gəlməyə cəhd etsə də, sülhməramlılar onları buraxmayıb.

### "Beynəlxalq ictimaiyyət azərbaycanlı ekoloqları dəstəkləməlidir"

ABŞ-dən olan politoloq, beynəlxalq münasibətlər üzrə ekspert Piter Teys deyib ki, azərbaycanlı ekoloqların və təbiətin mühafizə üzrə Qeyri-Hökumət Təşkilatlarının (QHT) nümayəndələrinin Şuşa-Xankəndi yolunda keçirdikləri etiraz aksiyası tarixi əhəmiyyətə malikdir və beynəlxalq ictimaiyyət onların tələblərini dəstəkləməlidir. Onun sözlərinə görə, bu cəsur azərbaycanlılar ətraf mühitin mühafizəsi və şirin su ehtiyatlarının daha yaxşı idarə olunması tələbi ilə dinc etiraz aksiyası keçirirlər: "Azərbaycan aktual ekoloji problemlərin həlli istiqamətində addımlar atır. Kənd təsərrüfatı torpaqlarının və su ehtiyatlarının çirklənməsinin fəsadlarının yumşaldılmasına böyük sərmayələr qoyur. Erməni rejimi isə Azərbaycan ərazilərini minalarla çirkləndirir və əkin sahələrini təhlükəli əraziyə çevirir". Politoloq xarici dövlətlərin, eləcə də Rusiya sülhməramlı kontingentinin BMT-nin davamlı inkişaf gündəliyində yer alan ekoloji problemlərə göz yummasından təəssüfləndiyini vurğulayıb: "Beynəlxalq ictimaiyyət ikinci gündür Şuşa-Xankəndi yolunda etiraz aksiyası keçirən azərbaycanlı ekoloqların tələblərini dəstəkləməlidir. BMT, ABŞ hökuməti və Avropa İttifaqı təcili olaraq bu məsələyə münasibət bildirməli, ətraf mühitin və su ehtiyatlarının çirkləndirilməsinin dayandırılması ilə bağlı Ermənistana təzyiq göstərməlidir. Susmaq həll yolu deyil. Azərbaycan dövləti və xalqı ətraf mühitin mühafizəsinə inanılmaz dərəcədə böyük vəsait sərf edib, Xəzər dənizinin ekologiyasının qorunmasında qətiyyət nümayiş etdirib, beynəlxalq ictimaiyyət isə məqsədyönlü şəkildə susur".

### "Ermənilərin "Qızılbulaq" yatağından qanunsuz istifadə etməsi ilə bağlı məhkəməyə müraciət ediləcək"

**"Anglo-Asian Mining Plc." şirkətinin maliyyə direktoru İlham Xəlilov deyib ki, Azərbaycanda qızıl, gümüş və mis hasilatı ilə məşğul olan Böyük Britaniyanın "Anglo-Asian Mining Plc." şirkəti "Qızılbulaq" yatağından qanunsuz istifadə ilə bağlı məhkəməyə müraciət edə bilər. O bildirib ki, məsələ ilə bağlı mütləq şəkildə beynəlxalq məhkəməyə müraciət edilməsi nəzərdə tutulur:** "Bununla bağlı Azərbaycan hökumətinin, yoxsa birbaşa "Anglo-Asian Mining"in iş qaldıracağı hələlik dəqiqləşməyib. Eyni zamanda ziyanın həcmi ilə bağlı dəqiqləşmələr aparılmalıdır. Amma hələlik orada araşdırma aparılmasına imkan verilmir". İ.Xəlilov əlavə edib ki, siyasi məsələlər öz həllini tapdıqdan sonra şirkət "Qızılbulaq" və onun yuxarı hissəsində yerləşən "Dəmirli" müqavilə sahəsində kəşfiyyat işlərinə başlayacaq. Qeyd edək ki, "Qızılbulaq" Müqavilə Sahəsi Rusiya sülhməramlılarının Qarabağda nəzarət etdikləri Ağdərə ərazisində yerləşir. Müqavilə sahəsi "Dəmirli" mis-molibden yatağının qızılla zəngin olan hissəsidir. Buradan ermənilər tərəfindən ildə 35 min unsiyaya qədər (təxminən 1 ton) qızıl hasil edildiyinə dair məlumatlar var. Qızılın yerin səthindən çıxarılması ciddi ekoloji və digər törəmə fəsadlar yaradır.

### "Rusiya sülhməramlılarının missiyası sülh yaratmaq, barışığı təmin etməkdir"

**Millət vəkiili Ceyhun Məmmədov deyib ki, XX əsrin sonlarında keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı Xocalı faciəsinin iştirakçısına çevrildiyi kimi, bu gün də rus sülhməramlıları yenə həmin siyasətdən çıxış edərək, ermənipərəst siyasət yürüdürlər:** "Rusiya sülhməramlı kontingentinin addımı qanunsuzdur. Bu, növbəti təxribat kimi qiymətləndirilməlidir. Həmin ərazilər Azərbaycan əraziləridir. Ona görə də bu məsələdə Azərbaycanın həssaslığı mütləq nəzərə alınmalıdır. İndiki halda ən önəmli məsələlərdən biri budur ki, Azərbaycan təhlükəsizliyini təmin etməlidir. Bunun üçün hər cür şərait yaradılmalıdır. Rusiya sülhməramlılarının missiyası sülh yaratmaq, barışığı təmin etməkdir. Əgər bacarmırlarsa, onda bunu özümüz edə bilərik. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın mövqeyi prinsipial və qətiyyətlidir. Xalqımızın birliyi və həmrəyliyi qürurvericidir. Biz birlikdə bütün vəzifələrin öhdəsindən gələcəyik!".

**İsmayıl Qocayev**

# Monitorinq qrupu əraziyə buraxılmalıdır

## Azərbaycan tərəfinin narazılığına hələ ki Rusiyanın adekvat cavabı yoxdur



**Rusiya Müdafiə Nazirliyinin 12.12.2022-ci il saat 19:00 tarixli bülletenində yer alan informasiya Qarabağdakı erməni separatçıları qəzəbləndirib.**

Belə ki, Rusiya MN-in Azərbaycanın Qarabağ bölgəsində müvəqqəti yerləşdirilmiş sülhməramlıların fəaliyyətinə dair gündəlik yayımladığı açıqlama separatçıların gözləntilərini doğrultmayıb.

Ermənilər Şuşa-Xankəndi yolunda baş verən hadisələrə Rusiya MN-dən özlərinə sərf edən reaksiya gözləsələr də, sülhməramlı missiyanın fəaliyyətinə dair açıqlamada bununla bağlı heç bir xatırlatmaya yer verilməyib.

Bu isə sosial şəbəkənin erməni seqmentində rezonans doğurub. Erməni istifadəçilər Rusiyanı onları "satmaq"da ittiham ediblər.

Görünür, Azərbaycan vətəndaşlarının öz ölkələrinin ərazisində istənilən aksiyanı keçirməkdə tam sərbəst olması həqiqətini separatçılar öz riyakar xislətləri səbəbilə dərk edə bilməsələr də, Rusiya MN ən azından bu ali həqiqəti anlamaqda çətinlik çəkməyib.

**Məsələni "Şərq"ə dəyərləndirən politoloq İlqar Vəlizadə bildirib ki Rusiyanın hərbi-siyasi rəhbərliyində hadisə ilə bağlı vahid yanaşma yoxdur:** "Rusiya rəhbərliyində müxtəlif fikirlər ola bilər. Bu sənəddə də onların nə planladığını şərh etmək çətindir. Lakin fakt ondan ibarətdir ki, Azərbaycan tərəfi haqlı narazılıqlarını bildirir. Rusiya tərəfinin isə bu narazılığa adekvat cavabı yoxdur. Əgər cavabları olsa idi, zamanında verərdilər.

Digər tərəfdən heç Volkov da nümayişçilərin qabağına çıxmır. Onun gəlişi ilə heç olmasa cavab ala bilərdik. Amma bülletendə də məsələ ilə bağlı heç nə yoxdur.

Bu isə rəsmi Moskvanın məsələyə reaksiya verməyə tələsmədiyini göstərir. Kreml tərəfindən veriləcək cavabın isə adekvat olacağını ümid edirəm. Yəni hadisələrin müsbətə doğru irəliləməsi üçün monitorinq qrupu əraziyə buraxılmalıdır".

**Nihat Müzəffər**

# "Rus sülhməramlıları etirazçılara müdaxilə edə bilməz"

## Turan Rzayev: "Bu baş versə, Azərbaycan tərəfinin də müdaxilə edəcəyini yaxşı bilirlər"



"Rəsmi Bakı bunu əsas gətirib, sülhməramlıların vaxtından tez ölkəni tərk etməsini tələb edə bilər"

**Dünəndən bir qrup azərbaycanlı QHT, media təmsilçisi və ictimai fəal Laçın-Xankəndi yolunu bağlayaraq, dinc aksiya keçirir. Onların tələbi sülhməramlıların nəzarəti altında olan Xocalı-Xankəndi ərazilərində ekoloji monitorinqin aparılması üçün ərazilərə buraxılmalarıdır.**

Etiraz aksiyası keçirən azərbaycanlı aktivist və QHT nümayəndələri bu axşam ərazidə quraşdırılan çadırlarda gecələyiblər.

Aksiya iştirakçılarının sayı artmaqdadır və paytaxt Bakıdan aksiyanın keçirildiyi Şuşa-Xankəndi yoluna ictimai fəallar axın edir.

Aksiya iştirakçıları səsucaldıcılarla "Volkov, cavab ver!", "Ekoloji terrora son!" şüarlarını səsləndirir.

Aksiya iştirakçıları Qarabağ iqtisadi rayonunun bəzi ərazilərində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı qüvvələrinin komandanı general-mayor Andrey Volkov əraziyə gələnə qədər etirazlarını davam etdirəcəklərini bildiriblər.

Xatırladaq ki, 2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb.

**Keçirilən aksiyalarla bağlı "Şərq"ə danışan politoloq Turan Rzayev bildirib ki, Rusiya sülhməramlıları əraziyə əlavə qüvvə cəlb edib:**

"Sülhməramlıların əraziyə əlavə qüvvə cəlb etməsi fonunda Ermənistan hakimiyyətinə yaxınlığı ilə seçilən "Baqramyan 26" teleqram kanalının iddiası diqqət çəkir. Kanal iddia edir ki, Rusiya sülhməramlıları Laçın yolunda keçirilən dinc aksiyanı dağıtmağa hazırlaşır.

Kanalın iddiası hər nə qədər diqqət çəksə də, real deyil.

Azərbaycanlı aktivistlər və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının üzvlərinin keçirdiyi aksiya dini və ya etnik zəmində deyil. Etiraz aksiyasında heç bir rasizm və nifrət şüarları səslənməyib. "Ekoloji terrora son" şüarı altında keçirilən etiraz aksiyaları tamamilə dinc xarakterli olduğu üçün sülhməramlılar prosesə müdaxilə edə bilməz.

Ümumiyyətlə, Rusiya sülhməramlılarının Azərbaycan vətəndaşlarına toxunması, xəbərdarlıq məqsədi ilə atəş açması, bu və ya başqa formada fiziki zorakılıq xarakterli müdaxilə etməsi həm 10 noyabr bəyanatının, həm də 22 fevral Moskva Bəyannaməsinin (Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə) kobud şəkildə pozulması deməkdir".

**Politoloqun qənaətincə, Ermənistan hakimiyyətinə yaxınlığı ilə seçilən "Baqramyan 26" teleqram kanalı 44 günlük Vətən müharibəsi gedişində də dəfələrlə dezinformasiya xarakterli iddialar, informasiyalar yayıb:**

"Nəzərə alsaq ki, aksiyalara dəstək məqsədilə insanlar əraziyə axın edir, erməni tərəfi aksiya iştirakçılarını qorxutmaq, çəkindirmək üçün bu tipdə iddia yaya bilər.

Etiraz aksiyasının keçirildiyi ərazidə Rusiya sülhməramlıları ilə bərabər, Azərbaycan təhlükəsizlik qüvvələri də fəaliyyət göstərir. Sülhməramlılar bunu bilə-bilə etirazçılara müdaxilə edə bilməz. Bu baş versə, Azərbaycan tərəfinin də müdaxilə edəcəyini yaxşı bilirlər.

Digər tərəfdən sülhmərmalıların aksiya iştirakçılarına müdaxilə etməsi onların sülhməramlı mandatını sonlandıra bilər. Rəsmi Bakı bunu əsas gətirib, sülhməramlıların vaxtından tez ölkəni tərk etməsini tələb edə bilər".

**Aygün Tahir**



# "Laçın yolunda sülhməramlıların ciddi texnikası yoxdur"

## Səlim Balayev Şuşadan "Şərq"ə danışdı

**"Səhər tezdən aksiya çərçivəsində çıxışlar oldu, tələblərimizi bir daha səsləndirdik. Əsasən ekoloji tələblərdir. Azərbaycan ekoloqları monitorinq aparmaq üçün "Qızılbulaq" və "Dəmirli" qızıl yataqlarına buraxılmalıdır".**

Bu barədə "Şərq"ə Şuşada rus sülhməramlılarının postu yaxınlığındakı aksiyada iştirak edən "Ekoloq-2010" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Səlim Balayev deyib. QHT rəhbəri xatırladıb ki, sözügedən yataqlar uzun müddətdir, yəni işğal dövründən bəri istismar olunur. Həmin yataqlardan çoxlu qızıl, mis-molibden çıxır: "Qeyri-rəsmi məlumatlara görə, vaxtilə "Dağlıq Qarabağ" iqtisadiyyatının gəlirinin 35 faizi məhz həmin iki yatağın hesabına formalaşır. Ona görə də yataqlarda monitorinq təşkil etmək çox vacibdir. Lakin rus sülhməramlılarının rəhbəri A.Volkov azərbaycanlı ekoloqların yataqların yerləşdiyi əraziyə getməsinə icazə verməyib. Aksiyaya dəstək çox böyükdür, axşam Bakıdan iki avtobus gəlmişdi. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının bir qrup idmançısı da aksiyaya qoşulublar. 3 avtobus da yoldadır, qısa müddət sonra aksiya bölgəsinə çatacaqlar. Heç kimin bir addım geri çəkilmək fikri yoxdur. Lazım gələrsə, bu gecə də, növbəti gün də aksiyamız davam edəcək".

> "Şayiələr buraxırlar ki, guya, "sülhməramlılar bölgəyə hərbi texnika cəmləyirlər", "aksiya iştirakçılarına dağılmaq üçün vaxt verilib", bunların hamısı yalandır"

**Səlim Balayev bildirib ki, sülhməramlıların əraziyə əlavə texnika cəmləməsi xəbərləri həqiqəti əks etdirmir:** "Biz Laçın yolunu Şuşa postundan kəsmişik. Laçından gələn tərəfdə rus sülhməramlılarının 4 texnikası var. Səhv etmirəmsə, ikisi "BTR", digər ikisi başqa texnikadır. Xankəndi tərəfdən isə sülhməramlılara aid hərbi polis maşınlarıdır. Yəni orada sülhməramlıların ciddi texnikası yoxdur. Şayiələr buraxırlar ki, guya, "sülhməramlılar bölgəyə hərbi texnika cəmləyirlər", "aksiya iştirakçılarına dağılmaq üçün vaxt verilib", bunların hamısı yalandır".

**QHT sədri təşkilatçılığın çox yüksək səviyyədə olduğunu söyləyib:** "Mən bura QHT rəhbəri kimi gəlmişəm. Aksiyada media nümayəndələri, fəallar, könüllülər iştirak edirlər. Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılmış "Regional İnkişaf" İctimai Birliyinin təmsilçiləri də aksiyada yüksək səviyyədə iştirak edirlər, dəstək verirlər. "Azərişıq", "Azərsu", Fövqəladə Hallar Nazirliyi və digər qurumların nümayəndələri aksiya iştirakçılarını hər cür təmin edirlər. Bütün texniki avadanlıqlar, mobil vasitələr üçün cərəyan doldurma qurğuları quraşdırılıb. TƏBİB-in təcili tibbi yardım maşınları səhər-axşam növbə çəkirlər. Asayişin təmin olunmasında Şuşa polisi yüksək peşəkarlıq nümayiş etdirir. Onu da qeyd edim ki, tikinti şirkətlərinin işçiləri də bizimlə səhərdək oyaq qalıblar. Burada çalışan şirkət əməkdaşlarına, mülki insanlara da çox təşəkkür edirik. Bizləri öz avtomobillərində təmənnasız olaraq hotelə və aksiya yerinə aparıb-gətirirlər".

**İsmayıl**

# MEDİA-nın İcraçı direktoru iordaniyalı media mütəxəssisi ilə görüşüb



**Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov İordaniyadan olan media üzrə mütəxəssis ilə görüşüb.**

Bu barədə "Şərq"ə MEDİA-dan bildirilib.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA) və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) birgə həyata keçirdikləri AİDA proqramı çərçivəsində Azərbaycanda səfərdə olan iordaniyalı media mütəxəssisi Mohammad Saleh Abdullah Al-Malkavi ilə görüşüb.

# Paşinyan son hadisələrin fərqindədir

## Yeni qarşıdurma baş nazirin sonunu gətirə bilər



**Ermənistanın Baş naziri Nikol Paşinyanın sədrliyi ilə Təhlükəsizlik Şurasının növbədənkənar iclası keçirilib. Bu barədə erməni mediası məlumat yayıb.**

**İclasda bölgədə baş verən hadisələr, xüsusən də Laçın yolundakı son vəziyyət müzakirə edilib.**

Məsələyə münasibət bildirən hərbi-siyasi ekspert Həşim Səhrablı vurğulayıb ki, Paşinyanın Təhlükəsizlik Şurasını çağırmaqda məqsədi bölgədə baş verən və gələcəyi qeyri-müəyyən olan hadisələri dəyərləndirməkdir:

"Çünki hazırdakı aksiyalar sakit tempdədir və heç bir ciddi təxribat yoxdur.

Lakin hərarət yüksəkdir və hər an istənilməz hadisə baş verə bilər. Bu isə vəziyyətin maksimum dəyişməsinə və hətta hərbi qarşıdurma risklərinin olmasına gətirib çıxaracağı ehtimalı var.

Dövlət rəsmiləri isə bu kimi riskləri öncədən dəyərləndirib, buna uyğun olaraq siyasətini müəyyən etməlidir. Paşinyanın də Təhlükəsizlik Şurasını çağırmasının səbəbi budur. Digər tərəfdən hazırda Paşinyanın erməni ordusunun əhəmiyyətli qismini və ağır texnikaları Qarabağdan çıxarmaq haqqında qərar qəbul etdiyi barəsində xəbərlər yayılıb.

Məhz bu xəbərdən sonra Paşinyanın Təhlükəsizlik Şurasını çağırması, rəsmi İrəvanın bölgədə yeni hərbi qarşıdurmaya hazır olmadığının xəbərçisidir. Çünki iki il əvvəl Ermənistan ordusu tamamilə darmadağın olduğu bir məğlubiyyətlə üzləşib. İki il ərzində isə dağılmış bir ordunu müharibəyə hazır vəziyyətə gətirmək qeyri-mümkündür.

Ümumiyyətlə, yəqin ki, Ermənistan baş naziri qarşıdurmalardan qaçmaq üçün Şuranı çağırıb və risklərdən sığortalanmağın mümkün yollarını düşünür. Paşinyan yaxşı fərqindədir ki, yeni qarşıdurma onun sonu ola bilər. Onların şuranı çağırmaqda başqa məqsədlərinin olduğunu isə düşünmürəm".

**Nihat Müzəffər**

# Sözü məmur deyir, memar yox...

Ona görə Bakı indi bir-birinin bəhsinə ucaldılan binalara görə görkəmsiz hala gəlib

**"Bakı şəhərinin Baş planı tezliklə təsdiq olunmalıdır". Bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, Baş Planın hazırlanması artıq başa çatıb: "Baş plan şəhərin zonalaşdırılması, eyni zamanda müvafiq məhdudiyyətlərin tətbiq edildiyi sənəddir. Bununla yanaşı, paytaxta uyğun müasir şəhərsalma yanaşmaları da plana salınıb".**

A.Quliyev bildirib ki, Baş Plan artıq təsdiq üçün təqdim edilib. Yaxın vaxtlarda təsdiqlənməsi gözlənilir. KİV-ə açıqlamasında DŞAK-nın sədri Bakıda gedən tikinti bumu ilə bağlı xəbərdarlıq edib: "Tarixi mərkəzlərdə gedən tikintilərdə tarixilik qorunmalıdır. Əsrlərlə formalaşmış tarixi şəhərsalma mühiti qorunmalıdır. Həmin ərazilərdə aparılacaq yeni işlər həmin mühitə uyğun aparılmalıdır. Bu, istər bərpa işlərində, istərsə də yeni bina tikintisində qorunmalıdır".

Bakının bəlalı Baş Planı haqda axtarış verəndə qarşımıza maraqlı məlumat çıxdı. Məlum oldu ki, Bakının hansısa, növbəti, neçənci olduğu dəqiq bilinməyən baş planlarından biri 2014-cü ilin dekabrında - 8 il əvvəl təsdiqlənmək üçün Nazirlər Kabinetinə təqdim edilib. Bu barədə "Modern.az" saytı yazıb. "Bakı şəhərinin Ərazidən istifadə və Zonalaşdırma Planı/Baş plan layihəsi"nin ictimai müzakirəsi zamanı aidiyyəti dövlət orqanlarının, o cümlədən Bakı Şəhər İcra Hakimiyyətinin layihəyə dair təklif və tövsiyələri nəzərə alınaraq layihədə müvafiq düzəlişlər aparılıb. Hazırda layihənin tamamlanması üzrə işlər başa çatmaq üzrədir". Bunu o zaman Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Aparat rəhbəri vəzifəsində çalışan Ağamirzə Canmirzəyev bildiribmiş. Əməkdar memar Feyzulla Quliyev isə layihə ilə bağlı "Modern.az"a maraqlı açıqlama verib. "Bakı şəhərinin Ərazidən istifadə və Zonalaşdırma Planı/Baş plan layihəsi"nin məsləhətçisi olan F.Quliyev bildirib ki, I və II etap layihələr tam hazırdır: "I etapda hazırlanan "Böyük Bakının Regional İnkişaf Planı və məxsusi Bakının ərazilərdən istifadə və zonalaşmasına dair layihə (Baş plan)" 2014-cü ilin dekabrında Nazirlər Kabinetinə təqdim edilib. Dünya Bankının ayırdığı 5 milyon manatdan qalan vəsait də xırda qəsəbələrin baş planlarının hazırlanmasına sərf olundu. Abşeron yarımadasına daxil olan Abşeron, Sumqayıt, Xırdalan, o cümlədən Bakının bütün ərazisi bu etapa daxildir. İkincisi, 2016-cı ilin sonlarından başlayaraq Bakı İcra Hakimiyyətinin ərazisinə məxsus olan şəhər tipli qəsəbələrin



> "Uzun illərdir biz deyirik, şəhər yuxarıya doğru deyil, yanlara genişlənməlidir. "Yuxarıya doğru inkişaf" şəhərdə sıxlığı artırır, tıxacların daha da artmasına səbəb olur. Basırıq yaradır. Tərpənmək olmur"

baş planları hazırlanıb və müzakirəyə çıxarılıb. Həmin vaxt Hacıbala Abutalıbov hər nə qədər bu layihədən xəbərsiz olduğunu desə də, onun razılıq ərizəsi alınmışdı". Deməli, bolşevik işğalından əvvəl və sovet hakimiyyəti illərində Bakıda şəhərsalma işləri yeni planlar üzrə aparılıb. Bakının ilk Baş Planı 1898-ci ildə, o dövrün məşhur memarı N.A. fon Der Nonne tərəfindən hazırlanıb. 1932-ci ildə paytaxtın ikinci Baş Planı işlənib. 1964-cü ildə isə respublika Nazirlər Soveti şəhərin üçüncü Baş Planını təsdiqləyib. Sonuncu plan 1986-cı ildə Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə təsdiq olunub və bu sənəd 2005-ci ilədək olan dövrü əhatə edib. Yeni Baş Plan - "Böyük Bakının Regional İnkişaf Planı" isə 2035-ci ilədək dövrü əhatə etməlidir. Xatırladılır ki, 2016-cı il dekabrın 22-də Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təşkilatçılığı ilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında "Bakıdövlətlayihə" İnstitutu tərəfindən hazırlanmış "Bakı şəhərinin Ərazidən İstifadə Zonalaşdırma Planı/Baş Plan" layihəsinin müzakirəsi keçirilib. Bununla əlaqədar Bakı Şəhər İcra Hakimiyyətinin yaydığı açıqlamada bildirilirdi ki, müzakirəyə çıxarılan layihədə şəhərin sosial-iqtisadi inkişafının bir çox istiqamətləri öz əksini düzgün tapmayıb.

Görünən budur ki, əlimizin altında olmasa da, hardasa, hansısa rəflərdə Bakının bir neçə Baş Planı olub və var. Maraqlı və cavabı gərəkən həm də budur ki, görəsən, 1990-cı illərin ortalarından, xüsusən də 2000-ci ildən bu yana paytaxtın özünəməxsus tarixi memarlıq üslubuna zidd, paytaxtın bu gün iflic vəziyyətinə düşməsinə səbəb olan tikililər həmin o Baş Planlarda əksini tapıbmı? Yeni Baş Planda bu tikililərə icazə var idimi? Məlum məsələdir, suala cavab verən olmayacaq. Ona görə yox ki, cavabı bilmirlər. Ona görə ki, cavab verə bilməzlər. Baş Plandan yayınmalara göz yumanlar özlərini ifşa edən deyil ki! Məmurların "ən yaxşı" cavabı "tikintiyə icazə illər əvvəl verilib, sərəncam var, necə qarşısını alaq?", olur. Bu da əlbəttə, özünü sudan quru çıxarmaq cəhdidir. Və günahı ötən illərin üzərinə atmaq da ən yaxşı "priyom"dur. Belə çıxır ki, 1990-cı illərin sonu 2000-ci illərin əvvəlində qeydiyyata alınmış hansısa MTK-nın sahibi fitri istedadı və öngörənliyi ilə hələ 1980-ci illərdə paytaxtın mərkəzi hisssələrində 15-20 mərtəbəli göydələnlər üçün yer qaralayıb və icazəsini də elə o vaxt alıb. Afərin! Əslində hər şey göz qabağındadır və görünən dağa bələdçi də lazım deyil. Hər nə qədər Bakı merləri - gəlmiş keçmişlər və hazırkı icra hakimiyyətlərinə guya ki, "göz ağartsa"lar da, necə deyərlər, dəyirman öz işindədir. Uzaq keçmişdə memarlıq üslubu ilə seçilən binalarına görə füsunkar görkəmli Bakı indi bir-birinin bəhsinə ucaldılan binalar hesabına görkəmsiz, uzundraz şəhərə çevrilib. Səkilər, yaşıllıqlar yaşayış və ofis binaları, kafelər, dönərxanalar, salonlar, ictimai iaşə obyektləri, tədris mərkəzləri, marketlər, yeməkxana, şadlıq sarayları... tərəfindən zəbt edilib. Kimsə şəhərin yerində saymasının tərəfdarı deyil. Təbii ki, zaman və dövr yeniliklərin olmasını qaçılmaz edir. Lakin bu yeniliklərin eybəcər formada təzahür etməsinə əsas vermir. Böyüyən təkcə Bakı deyil, dünyanın hər yerində şəhərlər inkişaf edir, böyüyür, əhali sayı artır. Şəhərin qorunmasını vəzifə borcu bilən məmurların olduğu şəhərlərdə yeni tikintilər bizdəki kimi eybəcər formada deyil, həqiqətən planlı şəkildə - dağıdıcı deyil, qurucu formada aparılır. Bakının da Baş Planı var. Kimdir baxan bu Baş Plana? Bu plan "baş" yox "Başayaq" Plan adlanmalıdır. Təzə Baş Plan təsdiqlənəndən sonra guya ki, "qanunsuz" tikililərə son qoyulacaq? Şəhərdən bundan sonra da Baş Plana uyğunsuz tikililər köhnə sərəncamlar, ya da sərəncamdan da qüvvətli pul - rüşvət hesabına tikiləcəksə, Baş Plan yenə gərəksiz sənəd kimi qalacaq.

**Bələdiyyələrin Fəaliyyətinin Təbliği İctimai Birliyinin sədri Vüqar Tofiqli "Şərq"ə açıqlamasında paytaxtda tikintilərin mütləq Baş Plana uyğun aparılmalı olduğunu dedi:**

- Bakının özünəməxsus memarlıq üslubunun korlanmasının bir səbəbi tarixi binalara "qəzalı" möhürü vurularaq sökülməsidir. Qəza vəziyyətinin bir neçə mərhələsi var. Birinci mərhələ, ikinci mərhələ. Bina elə vəziyyətdə ola bilər ki, onun təmirinə artıq ehtiyac yoxdur, təmir edilsə də, möhkəmləndirilməsi mümkün olmayacaq, təhlükəsi yenə qalacaq. Bir də var, bina elə vəziyyətdə olur ki, onu bərpa etmək, möhkəmləndirmə işləri aparmaqla uzun illər istismara yararlı vəziyyətə gətirilir. Tarixi binalarla bağlı əvvəlcə onların hansı vəziyyətdə olduğu dəqiqləşməlidir. Və bu məsələdə də şəxsi maraqlar, kommersiya maraqları deyil, ölkənin və şəhərin tarixi keçmişi əsas götürülməlidir. Dövlətimiz tarixi binaları qoruyur, bərpa edir. Cənab Prezident İlham Əliyev dəfələrlə bildirib ki, Bakının tarixi memarlıq üslubu qorunmalıdır, vəzifəyə yeni təyin etdiyi şəxslərdən də bu tələb olunur. Belə deyəndə, bəziləri həmin irad bildirməyə tələsirlər ki, köhnə binalar istismar müddətini başa vurub, uçub dağılır, onları saxlamaq nəyə lazımdır? Sovet illərində tikilmiş binalar arasında eləələri var ki, çox gözəl memarlıq üslubunda tikilib. Və artıq tarixi bina sayılırlar. Həmçinin sovet illərində tikilmiş yaşayış binaları, ictimai binalar da var ki, tarixi abidə sayılmasalar da, paytaxtımızın müəyyən hissəsində ümumi memarlıq ansamblını təşkil edirlər. Şəhərin ümumi görünüşünə uyğundurlar. Beşmərtəbəli binaların sırasının 16 mərtəbəli binayla kəskin pozulması ümumi panoramanı eybəcər şəklə salır. Ümumi görünüş budur ki, ansambl pozulmasın. Bir üslubdan digərinə keçid yumşaq olsun. Gözü yormasın, pis mənada yox, yaxşı mənada təəccübləndirsin. Niyə sovet vaxtı Bakıya qonaq gələnlər şəhərin ümumi panoramasına baxanda valeh olurdular? Çünki şəhərdə müasirliklə tarixilik arasında vəhdət vardı, qanunauyğunluq vardı. Amma sonrakı dönəmdə bu uyğunluq pozuldu. Qız qalasının qarşısında və ya yanında göydələni necə təsəvvür etmək olar? Qız qalasında bir qədər aralıda "Hacınskinin evi"dir. Görürsünüz, necə uyğunlaşdırıblar o zaman bu binanı Qız qalasıyla. Sanki eyni əsrdə, eyni memar tərəfindən tikilib. Bir-birini tamamlayır bu tikililər. Baxmayaraq ki, biri X-XII əsrlərə, digəri XX əsrin əvvəllərinə. Demək istəyirəm ki, şəhərdəki digər tikililəri də bu cür bir-birinə uyğunlaşdırmaq mümkündür. Uzun illərdir biz deyirik, şəhər yuxarıya doğru deyil, yanlara genişlənməlidir. "Yuxarıya doğru inkişaf" şəhərdə sıxlığı artırır, tıxacların daha da artmasına səbəb olur. Basırıq yaradır. Tərpənmək olmur. Ən vacibi, müasir binalar paytaxtın mərkəzi hissəsində Bakının memarlıq üslubuna xələl gətirir. Bakının əsl simasına zərər vurur, tarixiliyi silib-süpürür. Avropa şəhərlərində köhnə binaların yanında, onlara bitişik yeni, müasir binaların tikintisinə icazə verilmir. Bizdə isə təəssüf ki, uzun illərdir bu məsələyə səhlənkar yanaşılır. Kimsə demir ki, qəzalı, istismar müddəti başa çatmış bina olduğu kimi qalsın, kimsə ona əl dəyməsin. Sadəcə, işlər düzgün aparılmalıdır. Bu işdə məmur sözü deyil, memar sözü keçərli olmalıdır. Sökəntü və tikintidə mütləq memarların və şəhərsalma mütəxəssislərinin rəyi dinlənməlidir.

**Məlahət Rzayeva**

# Ermənistanın Avropa İttifaqı missiyasından gözlədiyi ümidlər suya düşür



## “Qərbin də, Rusiyanın da Qarabağdakı erməni silahlılara dair mövqeyindəki oxşarlıqlar Bakını narahat etməyəcək”

**Avropa İttifaqının Ermənistanla olan sərhədlə bağlı monitorinq missiyası dekabrın 19-da işini yekunlaşdıracaq. Bu barədə Aİ-nin xarici siyasət üzrə xüsusi nümayəndəsi Jozef Borrel bildirib. Onun sözlərinə görə, oktyabrda formalaşdırılmış missiya özünün səmərəli olduğunu göstərib:**

”Buna baxmayaraq biz Ermənistan və Azərbaycan arasında dialoqda öz nüfuzumuzu saxlamaq üçün Ermənistanda nümayəndələrdən ibarət komandamızı yerləşdirəcəyik. Bu komanda gələn il baş tuta biləcək mümkün mülki missiyanın müzakirəsi üçündür”. Xatırladaq ki, Aİ-nin monitorinq missiyası Zəngəzurda sərhədlə bağlı toqquşmalardan sonra vəziyyəti müşahidə etmək üçün Ermənistana dəvət olunmuşdu.

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə deyib ki, Ermənistanın Avropa İttifaqından gözlədiyi ümidlər İttifaqın Azərbaycanla sərhəddəki ”istismar müddəti”ni yekunlaşdırması ilə suya düşür. Analitik vurğulayıb ki, bu il oktyabrın əvvəlində Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyanın Avropa İttifaqının ”hakimliyi” ilə Praqada keçirilən görüşündə əldə edilən razılığın praktik əhəmiyyəti də itir:** ”Bakı Avropa İttifaqının Ermənistanın Azərbaycanla şərti sərhədinə monitorinq qrupu göndərməsinə razılıq vermişdi, İrəvan bunu toy-bayram kimi qeyd edirdi. Ermənistan düşünürdü ki, Avropa İttifaqının Azərbaycanla sərhəddəki missiyası İrəvanın perspektivdə Bakıya dil uzatmasına şərait yaradan vasitə kimi ona fayda gətirəcək. Keçən müddət ərzində Rusiya da Avropa İttifaqının hərbi monitorinq qrupunun regiona gəlməsindən narahatlıq keçirərək elə addımlar atdı ki, Ermənistan sərhədə adekvat tərzdə KTMT qüvvələrinin cəmlənməsi üçün bəhanələr tapsın. Dərin özüllərdə isə əraziyə qoşun gəlməsi heç Rusiyanın da marağında deyildi. Sadəcə, KTMT-dəki öhdəliklərə sadiqlik üçün hansısa bir addım atmaq lazım idi. Ancaq dövlət başçısı İlham Əliyev peşəkarlıqla bir-birinə əks qütblərin regionda kəllə-kəlləyə gəlməsinin qarşısını aldı və bununla dörd hədəfə çatdı. Ermənistanın istəkləri ürəyində qaldı və region yeni hərbi eskalasiyadan yayındı. Avropa İttifaqının üzvü Fransanın Cənubi Qafqazdakı oyunbazlığı səmərəsiz oldu. Bakı Avropa İttifaqı və Rusiya ilə münasibətlərində yaranan situativ həngaməni tərəflərdən birinin əlinə böyük kozır verməməklə balanslaşdıra bildi. Azərbaycan ABŞ ilə soyuyan münasibətlərinə yenidən hərarət verməyi bacardı. Bu da Moskvanın ambisiyalarının önündə cüzi də olsa kontur-arqumentlərdən birinə çevrildi”.

**A.Kərimov deyib ki, bütün bunların fonunda Avropa İttifaqı Ermənistandakı missiyasını sonlandırmağa hazırlaşır:** ”İrəvan üçün acınacaqlı panoram budur ki, o, monitorinq qrupunun xidmət müddətini uzatmağa nail ola bilmədi. Şuşa-Xankəndi yolundakı aksiyalar, yəni yumşaq güc fonunda Ermənistanın Avropa İttifaqından aldığı zərbə proseslərin səmtini müəyyən edəcək. Azərbaycan sərhədlərin delimitasiya və demarkasiyasına dair tələblərini Qarabağda Bakının xeyrinə cərəyan edən hadisələrin paralelində sərtləşdirəcək. Delimitasiya mövzusunda Bakı daha uzaq tarixə istinad edərək İrəvan üzərində mənəvi-psixoloji, hərbi-siyasi, diplomatik təzyiqlərini gücləndirir ki, bunun əməli təzahürlərinə doğru istiqamət götürüləcək. Şuşadan Xankəndiyə gedən marşrutda Azərbaycanın ayaq səslərini gurlaşdırması Rusiya və Qərbə mesajının kodunu aça bilər. Azərbaycan Rusiyanın Qarabağdakı sülhməramlılar və erməni əhali vasitəsilə yaratmaq istədiyi təzyiq mexanizmlərinə xalqın dili ilə cavab verir, milli müqavimətin ştrixləri Bakının danışıqlarda yumruğunu bərkidəcək. Şuşa-Xankəndi yolundakı aksiyaların şüarında ekoloji terrora meydan oxuyan fikirlərin üstünlük təşkil etməsi Qərbin diqqətini çəkəcək və onun Bakıya qarşı erməni əhalinin hüquqlarının müdafiəsi adı altında bəhanələri qalmayacaq”.

**Ekspert bəyan edib ki, Qərbin də, Rusiyanın da Qarabağdakı erməni silahlılara dair mövqeyindəki oxşarlıqlar Bakını narahat etməyəcək:** ”Çünki vəziyyət elə həddə çatıb ki, Azərbaycan ərazilərindəki quldur dəstələr və onların texnikaları avtomatik olaraq çıxarılma proseduru ilə üzləşir. Qarabağdakı hadisələr, Azərbaycanın Xankəndi, Xocalı üzərindəki suveren hüquqlarını bərpa etmək üçün göstərdiyi iradə Bakının sərhəddə də delimitasiya haqqındakı tələblərini itiləşdirməsinə şərait yaradacaq. Hesab etmək mümkündür ki, sərhəddə də güc tətbiqinin müxtəlif formaları zühur edəcək və İrəvan yola gəlməsə, Şərqi Zəngəzurdan tətbiq edilən qarışıq təzyiqlər hərbi əməliyyatların açarına çevriləcək”.

**İsmayıl Qocayev**

“Volkovun danışacağı yalana artıq heç kəs inanmayacaq”



**”Baş verənlər əslində aksiya deyil, müharibənin yeni dalğasıdır”.**

**Bunu ”Şərq”ə açıqlamasında ”Ulduz” jurnalının baş redaktoru Qulu Ağsəs Şuşadak sivil aksiyadan danışarkən deyib.**

O vurğulayıb: ”Mən etirazçıların Volkovu hadisə yerinə çağırmasını yox, onu Qarabağdan yola salmalarını tələb etməsini arzu edirəm. Biz iki il öncə torpaqlarımızın azadlığı uğrunda ordumuzla vahid komandanlıq altında vuruşurduq. Bu gün də yenidən bir komanda şəklində eyni savaş gedir. Amma bu dəfə silahsız vuruşuruq. Azərbaycan xalqı isə bütün cəbhələrdə qələbə qazanmağı bacarır. Bizim 2025-ci ilə qədər gözləməyə səbrimiz yoxdur. Çünki nə Rusiya, nə də Ermənistan tərəfinin 2 il qabaq üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirmək fikirləri var. Deməli, bu işi yenə də biz görməliyik və etirazçılar haqlıdır”.

# "Bu dəfə Şuşada silahsız vuruşuruq"

## Qulu Ağsəs: “Xankəndidəki ermənilər artıq azərbaycanlıların ayaq səslərini eşidir”

Onun sözlərinə görə, bu gün Xankəndidə yığışan ermənilərin paylaşılan fotolarında çox az sayda adam toplaşdığı görünür: ”Bu da ötən aylarda Ermənistan tərəfindən təşkil olunan ”möhtəşəm mitinqin” əslində pulla gətirilmiş adamlar tərəfindən həyata keçirildiyini sübut edir. Bu gün yol kəsildiyi üçün isə insan toplaya bilməyiblər. Deməli, Xankəndidə çox sayda erməni yaşamır. Digər tərəfdən Xankəndidə yaşayan ermənilərin böyük hissəsi belə mitinqə qatılmağa cəsarət etməyib. Çünki azərbaycanlıların ayaq səsləri onların qulağında cingildəyir. Ümumiyyətlə, bizim qanunlarımıza tabe olaraq yaşamaq istəyən ermənilərə qarşı heç bir zorakılıq tətbiq olunmayacaq. Azərbaycan bizimlə yaşamaq istəyənlərin hər birinə qucaq açmağa hazırdır. Düzdür, onlar bizlə dost, qardaş ola bilməzlər. Amma ən azından vətəndaşlarımız kimi qəbul oluna bilərlər. Yox əgər ağalıq etmək fikrindədirlərsə, yol açıqdır, çıxıb getməkdə azaddırlar. Azərbaycan xalqı bir addım belə geriyə durmayacaq. Ona görə ki, xalqımızın yenidən 30 il gözləməyə hövsələsi yoxdur”.

**Baş redaktor bildirib ki, dünən Rusiya liderinin ölkəmizin başçısına zəng vurması, bizim vətəndaşların aksiyasının Kremlin canına üşütmə saldığını göstərir:** ”Çünki onlar artıq başa düşürlər ki, ”xına, köhnə xına deyil”. Yəni Volkovun danışacağı yalana artıq heç kəs inanmayacaq. Ümumiyyətlə, rus generalı və erməni qulduru əl-ələ verib Qarabağın təbii sərvətlərini mənimsəyirlər. Bununla da onlar yaşadıqları yerləri bizə dağıdılmış və talanmış şəkildə geri qaytarmağı planlaşdırır. Çünki onlar anlayırlar ki, Azərbaycan yaxın zamanda Ağdərə, Xocalı, Xankəndi, Əsgəran kimi yerləri də yaxın zamanda separatçılardan təmizləyəcək. Dünəndən bəri gecəni soyuqda keçirən aksiya iştirakçılarına isə təşəkkür edirəm və onlara səbr arzu edirəm”.

**Nihat Müzəffər**

# Sülh müqaviləsinin 2 mətni var

## Məhəmməd Əsədullazadə: “Proseslər sülh müqaviləsinə doğru getməzsə, regionda hərbi eskalasiyanın baş verməsi qaçılmazdır”

**Rəsmi İrəvan ilə Bakı arasında sülh müqaviləsinin yalnız bir bəndi - diplomatik münasibətlərin Vyana Konvensiyasına uyğun olaraq qurulması barədə razılıq əldə olunub. Bunu Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan parlamentdə çıxışı zamanı deyib. Onun sözlərinə görə, sülh müqaviləsinin mətni üç dəfə redaktə olunub və hazırda Ermənistan tərəfi onun üzərində işləyir. Qriqoryan bildirib ki, sülh müqaviləsinin bütün digər bəndləri üzrə dəqiq razılıq yoxdur:**



”Söhbət sərhədin delimitasiyası və demarkasiyası, kommunikasiyaların açılması və humanitar məsələlərdən gedir”. Xatırladaq ki, A.Qriqoryan Azərbaycan ilə Ermənistan arasında imzalanacaq sülh müqaviləsi layihəsinin 2 mətninin olduğunu, onlardan birini Rusiyanın, digərini Azərbaycanın təklif etdiyini açıqlayıb.

**Politoloq Məhəmməd Əsədullazadə ”Şərq”ə deyib ki, Ermənistanın sülh müqaviləsindən yayınması, Rusiya variantına üstünlük verməsi Vaşinqton və Brüsselin Nikol Paşinyana qarşı mövqeyində dəyişikliyə gətirib çıxarıb. Analitik qeyd edib ki, Avropa İttifaqı da artıq Türkiyənin Ermənistanla Azərbaycan arasında vasitəçi olmasında maraqlıdır:** ”Rusiyanı prosesdə yeganə neytrallaşdıracaq ölkə məhz Türkiyədir. Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Azərbaycanla Ermənistan arasında yalnız diplomatik əlaqələrin qurulması barədə ortaq məxrəc olduğunu qeyd etdi. Rəsmi İrəvan iki ildən artıqdır ki, sülh müqaviləsinin bağlanmasından yayınır. Gah Qarabağa iddia irəli sürür, gah da Azərbaycanın ərazi bütövlüyünü tanımadığını bəyan edir. Cənubi Qafqaz uğrunda ABŞ başda olmaqla, Avropa İttifaqı və Rusiyanın maraqlarının toqquşduğunu görürük. Burada İranın da maraqları var. Türkiyə onsuz İkinci Qarabağ müharibəsindən sonra öz geosiyasi mövqeyini gücləndirib. Fransanın sülhə mane olduğunu görürük. Rusiya da separatizmə dəstək verməklə regionda sülhün əldə olunmasına qarşıdır. Yalnız Türkiyə və ABŞ sülh müqaviləsinin bağlanmasında maraqlıdır”. M.Əsədullazadə vurğulayıb ki, Rusiyanın bölgədə hərbi gücü var, amma siyasi-diplomatik aspektdə Qərbin mövqeləri daha da güclüdür: ”Ermənistan hakimiyyətinin siyasi iradəsindən çox şey asılıdır. Əgər Ermənistan hakimiyyəti siyasi iradə göstərsə, Qərblə uzlaşsa, Azərbaycanla sülh müqaviləsi bağlasa, Qərbin mövqeyi güclənəcək. Proseslər sülh müqaviləsinə doğru getməzsə, regionda hərbi eskalasiyanın baş verməsi qaçılmazdır. Bu, gözləniləndir”.

**İsmayıl**

# Savaş uzanacaq

## Şərtlər sülhdən çox müharibənin mesajını verir

**Ukrayna prezidenti müharibəni dayandırmaq üçün 10 kritik addımı nəzərdə tutan sülh formulunu təqdim edib. Prezident ofisinin rəhbəri Andrey Yermak diplomatlara planı təşkil edən məqamlar barədə ətraflı məlumat verib. Vurğulayıb ki, Ukrayna bütün beynəlxalq görüşlərdə, dəyirmi masalarda sülh formulunu təbliğ edir.**



Nə qədər ki, Ukraynaya Qərbin dəstəyi var, Putinlə Zelenski anlaşmayacaq

Onun sözlərinə görə, Ukraynanın sülh formulu elə qurulub ki, müharibəyə son qoyulsun və təcavüzün təkrarlanması, ərazilərin ələ keçirilməsi, həmçinin nüvə, ərzaq şantajı və ətraf mühitə ziyan vurulması mümkünsüz olsun: ”Ukrayna G7-yə üzv ölkələrin sülh formulunun dəstəyinə ümid edir və dövlətləri onun müəyyən bəndlərinin həyata keçirilməsində lider olmağa dəvət edir. Bundan əlavə, biz formulun həyata keçirilməsi üzərində işləmək üçün diplomatik prosesin başlanmasına təşəbbüs göstərəcəyik. İlk praktiki addım liderlərin sülh naminə birlik nümayiş etdirmək üçün görüşü ola bilər”. Kremlin mətbuat katibi Dmitri Peskov isə deyib ki, Zelenskinin təklifləri sülhə deyil, hərbi əməliyyatların davam etməsinə yönəlib: ”Kreml belə hesab edir ki, Ukrayna Prezidenti Volodimir Zelenskinin sülhə doğru addımlar atmaq üçün irəli sürdüyü təkliflər hərbi əməliyyatların davam etməsinə aparıb çıxarır”. Peskov deyib ki, ilin sonuna kimi Ukraynadan qoşunların çıxarılmasından söhbət gedə bilməz. Eyni zamanda o vurğulayıb ki, sülhə nail olmaq üçün Rusiyaya yeni regionların daxil olması ilə bağlı yeni reallıqları nəzərə almaq lazımdır: ”Ukrayna tərəfi bütün bu müddət ərzində formalaşmış reallıqları nəzərə almalıdır. Bu reallıqlar göstərir ki, Rusiya Federasiyasının yeni subyektləri var, onlar bu ərazilərdə keçirilən referendumlar nəticəsində yaranıb. Bu yeni reallıqları nəzərə almadan nizamlanma üzrə hər hansı irəliləyiş mümkün deyil”.

Ukrayna Prezidenti Volodimir Zelenski Rusiya ilə müharibədən sonrakı vəziyyət haqqında danışıb. Zelenski qələbədən sonrasını düşünmədiyini, lakin o vaxta qədər vəzifəsində qalacağını bildirib: ”Qələbəmizə qədər mən mütləq prezident olacağam. Sonrasını heç düşünmürəm. Hələ düşünmürəm, hazır deyiləm. Açığını deyim, David, mən dənizə getmək istəyirəm. Müharibədə qələbə qazanandan sonra dəniz və pivə içmək istəyirəm”. Onun fikrincə, Ukraynada müharibə Putin öləndə bitəcək.

Zelenski ilə ABŞ rəhbəri Co Bayden arasında telefon danışığının təfərrüatı da məlum olub. Liderlər gələcək silah tədarükü və enerji yardımını müzakirə ediblər. Zelenski ABŞ-nin Ukraynaya göstərdiyi misilsiz müdafiə və maliyyə yardımına görə təşəkkürünü ifadə edib: ”Biz Amerikanın Ukraynanın enerji sisteminin bərpası üçün göstərdiyi yardımı da yüksək qiymətləndiririk. Bu sahədə əməkdaşlığın daha da dərinləşəcəyinə ümid edirəm. Mən Ukrayna üçün effektiv hava hücumundan müdafiə sisteminin formalaşdırılmasının vacibliyini qeyd etdim”. O vurğulayıb ki, Ukraynanın mülki əhalisini və mühüm infrastrukturunu qorumaq üçün mümkün olan hər şeyi etmək lazımdır: ”Ukraynanı lazım olduğu qədər dəstəkləməyə hazır olduğunuzu təsdiq etdiyinizə, eləcə də Birləşmiş Ştatların aydın və ardıcıl öhdəliyinə görə təşəkkür edirəm”.

Ukrayna prezident ofisinin rəhbəri Andrey Yermak isə tviter səhifəsində yazıb ki, V.Zelenski Co Baydenlə söhbəti zamanı qlobal sülh sammitinin təşkilinin lehinə danışıb. O, Ukraynanın sülhə nail olmağa çalışdığını və bu məqsədə çatmaq üçün beynəlxalq səylərin birləşdirilməsinin vacibliyini qeyd edib.

**Politoloq Azər Qasımov ”Şərq”ə deyib ki, Ukrayna müharibəsinin amansız şəkildə davam etdiyi dövrdə tərəflərin ritorikasındakı süni sülh çağırışlarının səmimi olmasını kimsə gözləmir.** Analitikə görə, irəli sürülən şərtlər isə sülhdən çox müharibənin davam edəcəyi mesajını verir: ”Ukrayna dövləti və xalqı adından Prezident Zelenski tərəfindən irəli sürülmüş şərtlərin haqlı tərəfləri var. Onun Putinin ölməsindən danışması da təbiidir, çünki müharibə ayaqda qalmaq uğrunda deyil, ölümünə gedir. Hazırda Baxmut, Melitopol uğrunda gedən döyüşlərdə hər iki tərəfdən gündəlik yüzlərlə insan mənasız yerə həlak olur. Ukrayna tərəfdən buna öz torpaqları uğrunda həlak olmaq kimi şərəfli ölüm deyə bilsək də, rus əsgərinin ölümü mənasızdır. O baxımdan Putin və digər rəhbər şəxslərin ölümündən sonra müharibənin dayanmasını proqnozlaşdırmaq təbii və adi fikirdir. Qərbin Ukrayna müharibəsinin bitməsində maraqlı olmaması Rusiyanı müharibəyə şirnikləndirməklə onu oyuna salmasından aydındır. Müharibənin uzanması Rusiyanın məhvinin məntiqi davamıdır. Qərbdən bəzi dairələrin Ukraynaya danışıqlar üçün müəyyən təzyiqlərin edilməsinin səbəbləri isə Ukraynaya edilən maddi və hərbi yardımın çox olması və bundan istifadə edən həmin dairələrin Amerikadaxili siyasətdə üstünlük əldə etməsi cəhdidir”.

**A.Qasımovun fikrincə, Rusiya ilə sülhün mümkünlüyü indiki şərtlər daxilində və indiki rəhbərliklə mümkün deyil:** ”Sülhdə nə Rusiya, nə də Ukrayna tərəfi maraqlıdır. Bu məqamda bağlanan sülh müqaviləsi müharibəni bitirməyə yox, daha kəskin və uzunmüddətli gərginliyə hesablanmış addım olacaq. Rusiya bunu yenidən toparlanmaq üçün istifadə edəcək. Sadəcə kapitulyasiya aktı Kremli geri addım atmağa məcbur edər ki, bu da mümkünsüz kimi görünür. Rusiya ən azı işğal etdiyi ərazilərdən çıxarılmalıdır. Bunun özü rus ayısının pəncəsinin kəsilməsinə bəs edəcək. Sonra Rusiyadaxili çaxnaşmalar onların özlərinə verəcəyi ən yaxşı cəza olacaq”.

**İsmayıl Qocayev**

# Tələblərimiz hələlik icra olunmayıb

## Şuşada etiraz aksiyasına qoşulanların sayı artır



**”Dünən saat 10:30 radələrində başlayan aksiya inkişaf tempiylə davam edir. İştirakçıların sayında ciddi artım var və durmadan artmaqdadır”.**

*Bu sözləri ”Şərq”ə açıqlamasında “İnformasiya Təşəbbüslərinə Dəstək” İctimai Birliyinin sədri, ”QHT.az” və ”ictimaishura.az” saytlarının rəhbəri Cəsarət Hüseynzadə deyib. QHT rəhbəri bildirib ki, aksiya təqribən 150 qeyri-hökumət təşkilatçısının iştirakı ilə başladılıb:* ”Aksiya barədə mediada informasiya yayıldıqdan sonra dostlarımız, digər QHT-lər də aksiyaya qoşulmaqla bağlı müraciətlər etdilər. Biz də müraciətlərə müsbət yanaşaraq onların da aksiyaya qoşulmasına imkan yaratdıq. Hazırda aksiya iştirakçılarının sayı 500-dən artıqdır. Bura QHT nümayəndələri ilə yanaşı, könüllülər və media təmsilçiləri də daxildir. Tələblərimiz hələlik icra olunmayıb. Tələblər onunla bağlıdır ki, Rusiya sülhməramlı kontingentinin nümayəndələri Azərbaycan ekoloqlarının və digər dövlət qurumlarının monitorinqinə mane olmasın və şərait yaratsın”.

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**



# Uğura aparan yol...

## Enerji layihələri Avropanın enerji xəritəsini dəyişdirib

**Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın dinamik inkişafı ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindən biridir. Respublikamızla bu təşkilat arasında əlaqələr enerji, investisiya, ticarət və s. sahələrdə yüksək səviyyədə inkişaf edir. Bu beynəlxalq qurum respublikamızın əsas ticarət tərəfdaşlarından biri kimi tanınır.**

Ölkəmizin dünya birliyinə inteqrasiya prosesinin dərinləşməsi və beynəlxalq təşkilatlarla əlaqələrinin daha da inkişafı naminə Azərbaycan dövləti Avropa İttifaqı ilə ikitərəfli əlaqələrin yeni formatlarını yaradır, onunla yaxınlaşmaq üçün zəruri olan bütün təsisatları inkişaf etdirərək İttifaqın ümum-Avropa iqtisadi, siyasi və təhlükəsizlik məkanına inteqrasiya olunmaq istəyini nümayiş etdirir. Xüsusilə də Enerji siyasətində Avropa məkanı ilə əməkdaşlığa önəm verməsi ölkəmizin tərəfdaşlıq qismində müsbət beynəlxalq imicini formalaşdıran mühüm faktorlardandır. Malik olduğu zəngin karbohidrogen ehtiyatları sayəsində Avropanın enerji təhlükəsizliyinin təminində əvəzolunmaz mövqeyə sahib olan Azərbaycanda yaradılan əlverişli biznes mühiti və geniş iqtisadi inkişaf potensialı da respublikamızın tərəfdaş ölkələrlə daha sıx əməkdaşlığına imkan verir. Bu mənada Avroatlantik məkana intensiv surətdə inteqrasiya edən Azərbaycan Avropa İttifaqı ilə əməkdaşlıqda maraqlıdır. Bu baxımdan ölkəmizin ən böyük ticarət və investisiya tərəfdaşı olan Avropa İttifaqı ilə Azərbaycan arasında 2022-ci ilin iyulunda imzalanmış Anlaşma Memorandumu təbii qazın sabit və əlverişli şəraitdə nəqli, həm də Avropanın potensial "yaşıl enerji" ixracı baxımından əhəmiyyət kəsb edir.

Qeyd edək ki, bugünlərdə Brüsseldə Avropa İttifaqı Şərq Tərəfdaşlığı Xarici işlər nazirlərinin görüşü keçirilib. Aİ-nin Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borrelin sədrliyi ilə keçirilən görüşdə Şərq Tərəfdaşlığı ölkələrinin xarici işlər nazirləri və Avropa Komissiyasının Qonşuluq və Genişlənmə məsələləri üzrə Komissarı Oliver Varhelyi də iştirak edib.

İclasda Şərq Tərəfdaşlığının hazırkı vəziyyəti və gələcək istiqamətləri, regional təhlükəsizlik, Avropa İttifaqı ilə tərəfdaş ölkələr arasında münasibətlərin perspektivləri haqqında müzakirə aparılıb. Görüşdə həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin inkişafı, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol, nəqliyyat-kommunikasiya sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib, ölkəmizin regional nəqliyyat-logistika qovşağı olması vurğulanıb.

Görüşdə iştirak edən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov çıxış edərək ölkəmizin Avropa İttifaqı (Aİ) ilə bərabərhüquqlu tərəfdaşlığa əsaslanan münasibətlərin inkişafında maraqlı olduğunu və Azərbaycan Şərq Tərəfdaşlığını qarşılıqlı hörmət, bərabərhüquqlu tərəfdaşlıq, ortaq maraqlar və faydalara əsaslanan ikitərəfli Aİ-Azərbaycan münasibətlərinin

### Azərbaycan Avropa İttifaqı ilə əməkdaşlığın qorunub saxlanmasında, inkişafında maraqlıdır

inkişafı üçün mühüm tamamlayıcı mexanizm kimi görməkdə davam etdiyini qeyd edib. Azərbaycan ilə Avropa İttifaqı arasında, enerji və nəqliyyat əlaqələrinin yaradılması, ticarət əməkdaşlığının inkişaf etdirilməsi imkanlarına toxunub.

Nazir, Aİ-nin Azərbaycan üçün ən böyük ticarət və investisiya tərəfdaşı olduğunu və 18 iyul 2022-ci il tarixində Azərbaycan və Avropa İttifaqı arasında imzalanma Memorandumunun özündə enerji təhlükəsizliyinin bir sıra komponentlərini, o cümlədən "yaşıl enerji"nin Avropaya potensial ixracı baxımından əhəmiyyətli olacağını vurğulayıb. Həmçinin, Aİ ilə Azərbaycan arasında yeni ikitərəfli saziş üzrə danışıqların uğurla davam etdiyi bildirilib.

Nazir, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində inkişaf etməkdə olan nəqliyyat qovşağının, o cümlədən Zəngəzur dəhlizinin regional sülh və davamlılıq üçün müsbət rol oynayacağını və regiondaxili ticarətə təkan verəcəyini vurğulayıb.

**Azərbaycan və Avropa İttifaqı əlaqələrini yüksək dəyərləndirən millət vəkili Ceyhun Məmmədov Azərbaycanın sürətlə Avropaya inteqrasiya addımları atdığını deyib. Onun sözlərinə görə, Azərbaycan Avropa İttifaqı ilə əməkdaşlığın qorunub saxlanmasında, inkişafın dərinləşməsində maraqlıdır:** "Xüsusilə də enerji təhlükəsizliyi nöqteyi-nəzərindən buna daha böyük ehtiyac var və Avropa İttifaqı Azərbaycanı yeni, alternativ enerji mənbəyi kimi qəbul edir.

Reallıq ondan ibarətdir ki, Azərbaycanın başlatdığı və Avropa İttifaqının dəstəklədiyi enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişdirib. Öncə neft hasilatına, sonra qaz hasilatına başlanıldı. Eyni zamanda Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəməri çəkildi. 3500 kilometr uzunluğu olan Cənub Qaz Dəhlizi boru kəməri sistemlərini inteqrasiya etdi və bununla Azərbaycanın təbii qazı Avropa qitəsinə çatdırılır. Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində uzunmüddətli, proqnozlaşdırılan və çox etibarlı əməkdaşlıq əlaqələrinin mövcudluğu böyük əhəmiyyətə malikdir. Avropa İttifaqının Azərbaycanla əməkdaşlığın gücləndirilməsi istiqamətində addım və səyləri bu fikri bir daha təsdiq edir.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan ilə Avropa İttifaqı arasında bir çox sahələri əhatə edən, o cümlədən neft, qaz və bərpaolunan enerji mənbələrini, hidrogeni, enerji səmərəliliyini və digər məsələləri nəzərdə tutan enerji dialoqu mövcuddur. Azərbaycanda bərpaolunan enerjinin istehsalı sahəsində böyük potensial Avropa İttifaqı tərəfindən artıq yüksək dəyərləndirilir. Külək və günəş enerjisinə artıq sərmayə qoyuluşu prosesinə başlanıb. Bu layihələrin də uğurla icra olunacağına heç şübhə yoxdur. Tərəflər bu məsələdə qətiyyətli və prinsipial mövqe nümayiş etdirirlər".

**Hazırda Azərbaycanın Qarabağda bir çox istiqamətlərdə, o cümlədən enerji sahəsində mühüm layihələrin icrasını planlaşdırdığını xatırladan millət vəkili deyib:** "Artıq bir sıra layihələrin icrasına başlanılıb. Qarabağın və Şərqi Zəngəzurun azad olunmuş ərazilərində Günəş və külək enerjisinin potensialı 9200 meqavatdır. Xəzər dənizində külək enerjisinin potensialı 157 qeqavata bərabərdir. Gələn illər ərzində istifadəyə veriləcək yeni qaz yataqları da mövcuddur. Bərpaolunan enerjidən istifadə edilmə nəticəsində ixrac üçün daha çox qaz ehtiyatı təmin olunacaqdır".

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Şam ağacını şəhid fotoları ilə bəzəmək olarmı?

**Faiq Ələkbərli:** "Mənçə, şam ağacının üzərində şəhid şəklinin qoyulması qəbuledilməzdir"

**Lalə Mehralı:** "Müqəddəs bildiyimiz ağacın üzərinə fotosunu asmaq daha məntiqlidir"

**Yeni ilin astanasındayıq. Hər kəs Yeni il və 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününü təmtəraqla, ziyafətlə qarşılamasa da, kiçik yığıncaq keçirir. Bayramlarda arzulayırdıq ki, gələn ili Qarabağda qeyd edək. Artıq o arzumuz iki ildir, gerçəkləşib. 44 günlük Vətən müharibəsindən sonra sosial şəbəkələrdə hər Yeni il ərəfəsində şam ağaclarının üzərinə şəhid fotolarının asıldığı şəkillər yayılır.**

Həmişəki kimi fikir ayrılığı yaşanır. Sosial şəbəkələrdə bəziləri bunu tənqid, bəziləri isə təqdir edir. "Bu, şəhidləri bayramlarda da unutmadığımız anlamına gəlir", "Şam ağacını şəhid şəkilləri ilə bəzəmək düşüncəsizliyin nəçənci səviyyəsidir", "Dəlixanadır", "Elədirsə, şəhidlərimizi harda xatırlayaq?" kimi fikirlər səsləndirilir.

**Müzakirələrə səbəb olan mövzu ilə əlaqəli "Şərq"lə fikirlərini bölüşən türkoloq-alim Faiq Ələkbərli bunun çox həssas məsələ olduğunu vurğulayıb:** "Elə ailələr var ki, bunu şəhidlərinin Yeni ildə də yad edilməsi kimi qiymətləndirir. Sözügedən aspektdən yanaşaraq haqq qazandırırlar. Hər tərəfin öz arqumentləri var. Mənçə, şam ağacının üzərində şəhid şəklinin qoyulması qəbuledilməzdir. Bunu doğru saymıram, mənalı deyil. Lakin kimsə özündə rahatlıq tapmaq niyyəti ilə belə addım atırsa, birmənalı şəkildə ittiham etməməliyik. Fərdlərin düşüncələri fərqlidir. Şəhidlərin məzarını ziyarət etmək, anım tədbirləri keçirtmək daha çox lazımdır".

**Sosioloq Lalə Mehralı isə bildirib ki, şam ağacının üzərinə şəhid şəkli asmaqla qəbahət iş görmürlər:** "Şam ağacının əkilməsi, böyüdülməsi türklərdə müqəddəs davranış kimi qəbul edilir. Məzarlıqlarda şam ağaclarının sayı çoxdur. Çünki ta qədimdən pis ruhları, varlıqları qovmaq üçün şam ağacının müdafiəsi, qalxanı olduğu düşünülür. Azərbaycanın əksər ərazisində şam ağacları üstünlük təşkil edir.

Bəzən söyləyirlər, şam ağacının bəzədilməsi xristianlardan bizə keçib. Lakin öz qədim adətimizdir. Müqəddəs bilinən ağacın üzərindən müqəddəs şəhidlərimizin fotosunu asmaq o qədər də tənqid ediləsi vəziyyət deyil. Bayram əhval-ruhiyyəsinə görə tənqid hədəfinə çevrilir. Şam ağacının üzərində fotoların asmaqla onları xatırlayırıq.

Ümumilikdə, fərddən fərdə dəyişən mövzudur. Bəlkə, etiraz edən şəhid ailələri də ola bilər. Amma şəhidin maketini düzəldib, qarşısında oynamaq, toy etməkdənsə, müqəddəs bildiyimiz ağacın üzərinə fotosunu asmaq daha məntiqlidir".

**Aygün Tahir**

# 30 il yetmədi?

## Azərbaycanın sərvətlərinin talanmasına son qoyulmalıdır



**"Təbii sərvətlərimizin ermənilər tərəfindən talanması narahatedicidir. Biz yenə də ikili standartların nəticəsini görürük". Bu fikirləri Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü Fatma Yıldırım "Ətraf mühitin mühafizəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib.**

Deputat bildirib ki, Azərbaycanın təbii sərvətlərinin ermənilər və onların havadarları tərəfindən talanması bizi narahat edir: "Azərbaycan ictimaiyyətinin təbii odur ki, "Qızılbulaq" və "Dəmirli" yataqlarının istismarına son qoyulsun. Ermənilərin ərazilərimizdə ekosistemi məhv etməsi, yeraltı sərvətlərimizi talamaqları üçün 30 il yetmədi? Necə olur ki, xarici ölkə vətəndaşları bu ərazilərə sərbəst girə bilir, amma Azərbaycan vətəndaşlarına qadağa qoyulur?". Fatma Yıldırım Ermənistanın ekoloji terroruna etiraz əlaməti olaraq Milli Məclisin deputatlarının bəyanat verməsini təklif edib.

*Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov da deyib ki, Rusiya sülhməramlıları mandatlarından sui-istifadə edirlər:* "Azərbaycan heç bir qüvvəyə imkan verməyəcək ki, müstəqilliyimizə, ərazi bütövlüyümüzə zərbə vursun. Rusiya sülhməramlılarının bir qrup ictimai fəal və ekoloqun qarşısını kəsdiyi yolu məhz Azərbaycan dövləti inşa edib". S.Qurbanov qeyd edib ki, mandatlarından sui-istifadə edən Rusiya sülhməramlıları ekoloqların və bir qrup ictimai fəalın qarşısını kəsiblər. Bu, heç bir hüquqa sığmır: "Dövlətimiz bundan sonra ərazilərimizdə ekoloji tarazlığın pozulmasına imkan verməyəcək. Azərbaycan Zəfərindən sonra erməni vəhşilərinin məhv etdikləri əraziləri yenidən qurur".

**İsmayıl**



# Sabahın Əlisa Nicatları çoxdur

## Emil Rasimoğlu: "Məsələ həllini tapmalı idi. Amma olmadı!"

**"Günlər öncə yazıçı Əlisa Nicatın aktuallaşan durumuna olan münasibətləri yetərincə seyr etdim. Doğrudur, Şahbaz Xuduoğlu bir yazıçının acınacaqlı durumunu ictimailəşdirdi, amma onun həlli yolunu Əlisa Nicatı fərdləşdirməkdə, yazıçı kontekstindən çıxartmaqda tapdı". Bu sözləri "Şərq"ə açıqlamasında şair Emil Rasimoğlu deyib.**

Şairin sözlərinə görə, məsələnin əsas mahiyyətinin fərqinə varılmasında, üzə çıxarılmasındakı gücsüzlük, iradəsizlik tək Şahbaz Xuduoğlunda yox, elə Əlisa Nicatın özündən tutmuş bu məsələni müzakirə edən hər kəsdə müşahidə olundu: "Əslində Əlisa Nicatın mənzərəsi bir faciənin simptomu idi. Şahbaz Xuduoğlu (və müəyyən ədəbi, ictimai çevrə) bəs neylədi? Həmin simptomu yaradan faciəni yox, simptomun özünü aradan qaldırdı. Bunun da müvəqqəti olduğunu düşünürəm. Fərz edin, qan-damar sistemində problemi olan bir adamın təzyiqi yüksəlir. Burada təzyiqin tənzimlənməsinə qarşı atılan addımlar yalnız müvəqqəti rahatlığa xidmət edəcək, problemin aradan qalxmasına yox.

> **"Məsul qurumlar, səlahiyyətli şəxslər mövcud mənzərəni görməli və problemin fərqinə varmalıdır!"**

Bəs Əlisa Nicatın mənzərəsinin fonunda nə dayanırdı? Təbii ki, bir ölkədə yazıçıya, sənətkara müəyyən laqeydlik və o laqeydliyə səbəb olan amillər! Bir az da dəqiq desək, dövlətin yazıçıya, sənət adamına olan qayğısının bəs qədər olmaması, bu azmış kimi, göstərdiyi o az qayğının da doğru ünvanlara, öz sahibinə düzgün şəkildə çatdırılmamasıdır.

Məsələ bu istiqamətdə aktuallaşmalı, müzakirə olunmalı, həllini tapmalı idi. Amma olmadı! Səbəbi isə bir daha deyirəm, iradəsizlik, gücsüzlük. Bu məsələdə Əlisa Nicatın da bir yazıçı kimi iradəsi, necə deyərlər, əlindəki bir tikə çörəyi aşa bilmədi. Əgər aşsaydı, o, durumunun aktuallaşmasını alqışlayardı, amma fərdi formada - bu şəkildə həllindən imtina edib, öz vəziyyətini ölkədə yazıçı yaşamı ilə, yazıçıya olan diqqətlə əlaqələndirib problemin bu yöndə çözülməsinə çalışardı, can atardı, hətta tələb edərdi! Yoxsa ki Əlisa Nicat bilməli idi ki, kitabı oxumaq üçün alarlar, yardım üçün yox! Kitabı oxumaq üçün imzalayarlar, yardım üçün yox! Yardım üçün alınan, imzalanan kitabın taleyi də elə müəllifinin taleyindən geri qalmayacaq.

Bu gedişlə Şərif Ağayarlar, Pərviz Cəbrayıllar, Salam Sarvanlar, Kənan Hacılar...və daha kimlər, kimlər sabahın Əlisa Nicatları deyilmi? Hətta bəlkə də bu günün Əlisa Nicatlarıdır, nəinki sabahın! Dövlət, məsul qurumlar, səlahiyyətli şəxslər mövcud mənzərəni görməli və problemin fərqinə varmalıdır!".

**Şəymən**

# Bələdiyyələr də bina və mənzil sahiblərindən vergi istəyir

## Əkrəm Həsənov: "Vətəndaş bələdiyyənin normativ xarakterli aktının mövcud olmadığı səbəbindən məsuliyyətə cəlb oluna bilməz"




**Son zamanlar bələdiyyələr torpaq mülkiyyətçilərindən torpaq vergisinin, bina və mənzil mülkiyyətçilərindən isə əmlak vergisinin ödənilməsini tələb edirlər.**

Hüquqşünas Əkrəm Həsənov isə "Şərq"ə açıqlamasında deyib ki, Vergi Məcəlləsinin 8-ci maddəsinə görə, bələdiyyə vergilərinə fiziki şəxslərin torpaq və əmlak vergisi aiddir: "Məcəllədə həmin vergilərin dərəcələri də təsbit edilib. Amma 4.4-cü maddədə o da vurğulanıb ki, bələdiyyə vergilərinin dərəcələri vergi qanunvericiliyində təsbit edilmiş hədlər daxilində müəyyən edilir. Yəni hər bələdiyyə ərazisində tutulan verginin dərəcəsini müəyyən etməlidir. Bələdiyyələr bunu hansı hüquqi aktda müəyyən etməlidir?

"Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 1.0.3-cü və 4.1.6-cı maddələrinə əsasən, bələdiyyələrin əhali üçün məcburi qərarları normativ xarakterli akt formasında rəsmiləşdirilməlidir. O cümlədən həmin akt 78-ci maddəyə uyğun olaraq Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməlidir. Lakin Azərbaycan bələdiyyələrinin indiyədək həmin Reyestrə daxil etdikləri bir akt var - nizamnamələri.

Beləliklə, Vergi Məcəlləsi yerli (bələdiyyə) vergiləri nəzərdə tutsa da, hətta onların yuxarı həddini müəyyən etsə də, bələdiyyələr sırf özlərinə münasibətdə bu cür vergiləri normativ xarakterli aktlarında təsbit etməyiblər. Buna görə də vətəndaşlar həmin vergini ödəmədiyi təqdirdə bələdiyyələr qanuni alətlərlə heç nə edə bilməzlər. Vətəndaş bələdiyyənin normativ xarakterli aktının mövcud olmadığı səbəbindən məsuliyyətə cəlb oluna bilməz.

Hüquqi savadsızlığın və etinasızlığın bədəli budur! Zatən bu, nəticə olaraq bələdiyyələrimizin yeganə problemi deyil".

**Şəymən**

# "Oturaq həyat tərzi çox ziyanlıdır"

## Ağa Salamov: "Əla növ undan hazırlanan məhsullar oturaq həyat tərzi keçirən insanlarda xəstəliklər yaradır"

**Bir çoxumuz iş şəraiti ilə əlaqədar olaraq bəzən saatlarla kompüter arxasında olmağa məcbur qalırıq. Ofis şəraitində çalışan şəxslər üçün oturaq həyat şəraiti qaçılmazdır ki, bunun da sağlamlığa əks təsirlərinin olduğu bəllidir.**



Bəs görəsən, günlük həyatımızın 7-8 saatını oturaq şəkildə keçirərkən, hansı şəkildə qidalanmalıyıq? Ofis şəraitində çalışan insanların qida rasionu necə olmalıdır?

Məsələ ilə bağlı danışan qida məsələləri üzrə mütəxəssis Ağa Salamov oturaq həyat tərzinin obez də daxil olmaqla, bir sıra xəstəliklərə gətirib çıxardığını bildirib: "Oturaq həyat tərzi çox ziyanlıdır və bəzən obezə qədər gətirib çıxarır. Bəzi hallarda bu şəraitdə çalışan insanlarda qan dövranı pozulur. Bütün günü yorğunluq, əzginlik müşahidə edilir və başgicəllənmə halları yaşanır. Ona görə də bir saatdan bir fiziki aktivlik olmalı, ən azından çay süzmək bəhanəsi ilə də olsa, yerimizdən durmalıyıq. Əgər bu olmasa, belə həyat tərzi müxtəlif xəstəliklərə gətirib çıxaracaq".

Qida məsələləri üzrə ekspert ofis şəraitində çalışan şəxslərin əla növ un məhsullarından uzaq durmalı olduğunu deyib. Ekspert yaşıl çaydan istifadənin zəruri olduğunu da qeyd edib: "Çox vaxt ofis şəraitində çalışan şəxslər evdə hazırlanmış yeməklə qidalanırlar. Xüsusilə riskli qidalar kimi hesab olunan toyuq, balıq, yumurta kimi məhsullar səhərdən günortayadək soyuducuda qalmadıqda, bu, zəhərlənməyə qədər gətirib çıxarır. Bundan başqa mayonezli qidalar, salatlar, ət yeməkləri də risk daşıyıcısıdır. Sağlam qidalanmaq istəyən şəxslərin masalarında dietik peçenyelər olmalıdır və onlar ara-sıra yaşıl çay qəbul edərək, istirahət etməlidirlər.

Bundan başqa lifli qidalar istehlak edilməli, kök, çuğundur, badımcan kimi qidalar yeyilməlidir və undan hazırlanan məhsullardan uzaq durmaq lazımdır. Əla növ undan hazırlanan məhsullar oturaq həyat tərzi keçirən insanlarda qəbizlik, bağırsaq xəstəlikləri və s. yaradır. Bu səbəbdən oturaq həyat tərzi keçirən insanlar bir dilim olmaqla ancaq lifli çörəklərdən istifadə etməlidir. Bundan başqa ölçü gözlənilməklə, zülal da qəbul edilməlidir".

**Şəymən**



# "Hər dərmandan 5-6 qutu gətirilməsinə icazə verilə bilər"

## Natiq Cəfərli: "Taarif Şurası vasitəsilə dərman qiymətlərinin tənzimlənməsi qərarı çox səhv və mənasız qərardır"

**Dövlət Gömrük Komitəsi ölkəyə şəxsi istifadə üçün gətirilən dərmanlar üçün norma müəyyən edilməsi istiqamətində iş aparır.**

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Dövlət Gömrük Komitəsi sədrinin I müavini, sədr vəzifəsini müvəqqəti icra edən Şahin Bağırov bildirib: "Bununla bağlı Səhiyyə Nazirliyi ilə birgə iş aparırıq. Yəqin ki, yaxın vaxtlarda hökumətə müvafiq qanun layihəsi təqdim ediləcək".

**İqtisadçı-ekspert Natiq Cəfərli isə "Şərq"ə açıqlamasında deyib ki, problemin əsas kökü dərmanların qiymətinin baha olması ilə bağlıdır. Ölkəyə şəxsi istifadə üçün gətirilən dərmanlarla bağlı yeni tənzimləmələrin olması yaxşı haldır. Bununla bağlı limitin az olması doğru yanaşma deyildi. Ən azı hər dərmandan 5-6 qutu gətirilməsinə icazə verilə bilər:** "Ancaq bu, problemdən çıxış yolu deyil. Normaların artırılması apteklərdəki bahalaşmaya təsir etməyəcək. Ölkədə nə qədər insan xaricə gedir? Daimi olaraq dərman qəbul etməli olan xəstələr var ki, xaricə gedib-gələn tanışı yoxdur. Bəs onlar nə etsin?

Ölkə daxilində dərmanların qiymətinin baha olmasına qarşı real addımlar atılmalıdır.

Dövlət tərəfindən Taarif Şurası vasitəsilə dərman qiymətlərinin tənzimlənməsi qərarı çox səhv, yanlış, absurd və mənasız qərardır.

Bu mexanizm yaradılandan sonra qiymətlər qalxır, keyfiyyət isə aşağı düşür, çünki qiymət təyin edilməsi istehsalçı ölkələr və molekullar üzrədir. Bu zaman molekulların ən ucuzu, keyfiyyətsizi alınıb ölkəyə gətirilir, keyfiyyətli dərman qıtlığı yaranır və qiymətlərin isə yüksəlməsi prosesi baş verir. Hökumət bazar iqtisadiyyatının genişlənməsinə və xarici dərman şirkətlərinin ölkəyə girişinə şərait yaratmalıdır".

*Ekspert deyib ki, ölkədə Taarif Şurasının tənzimlənməsi tətbiq olunandan, onlarla dərman satan kiçik və orta şirkətlər iflas edib bazardan çıxdılar, böyük şirkətlər qalıblar ki, onlar da qiyməti diktə etməkdə çətinlik çəkmirlər:* "Digər bir məsələ gömrük rüsumları və vergilərlə bağlıdır. Ölkədə dərman preparatlarına 18 faiz ƏDV var. Azərbaycan dövləti dərman preparatlarına qoyulan gömrük rüsumunu sıfırlamalı, əlavə dəyər vergisini də 18 faizdən 2 faizə qədər azaltmalıdır. Bu, qiymətlərin kəskin ucuzlaşmasına və bazarda rəqabət mühitinin artmasına imkan verə bilər".

**Şəymən**

# Monitorinqin aparılmasına əngəli yaradan ruslardır

## Çünki onlar da Azərbaycana aid yataqlardan gəlir əldə edirlər



**"Moskva Xocalı soyqırımından sonra bölgədə müharibənin genişlənəcəyi təhlükəsinə görə Qarabağdakı mənfur 366 hərbi briqadanı bölgədən çıxarmağa qərar vermişdi". Bu barədə "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib.**

Ekspert bildirib ki, o zaman hadisəni yerindəcə izləyən rusiyalı jurnalistlərdən biri hərbi briqadaya komandanlıq edənlərin və onların xanımlarının maşınlarında pul və zinət aşyaları daşınmasının şahidi olmuş və bunu qələmə almışdı: "Qarabağdakı rusiyalı hərbçilər iki yolla varlanırdılar. Birincisi, rusiyalı hərbçilər erməni separatçılarla birgə işğal etdikləri ərazilərdə azərbaycanlıların evlərini yağmalayırdılar. İkincisi isə separatçılar onlara verilən dəstəyə görə, erməni lobbisindən aldıqları pulları rus zabitlərlə bölüşürdülər. Kim zəmanət verə bilər ki, erməni separatçıları yenə eyni taktikadan istifadə etmirlər?! Separatçılar erməni lobbisindən aldılqarı pulu rusiyalı hərbi kontingentin rəhbərliyi və zabitləri ilə bölüşürlər. Azərbaycana aid yataqların qanunsuz istismarından əldə edilən gəlirdən onlara pay verirlər. Azərbaycanlı məmurların yataqlarda monitorinq aparmasına yaradılan əngəlin səbəblərindən biri də budur. Rusiya Ukraynanın işğal etdikləri ərazilərində taxılı yağmaladıqları kimi, hərbçiləri də Azərbaycan ərazisində yataqlarımızın qanunsuz istismarından qazanır".

**İsmayıl**

**Elan**

Bakı şəhəri, Nəqliyyat Təlim-Tədris Mərkəzi tərəfindən Cabbarlı Savalan Güləşir oğluna verilmiş (B.C dərəcəli) sürücülük şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Əlizadə Günay Knyaz qızının adına verilmiş "Qurtuluş-93" bağçalı evlərə məxsus T0054 evin sənədi itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyası tərəfindən Məmmədova Sona Vüqar qızına verilmiş Dizayn Tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bildiriş**

"AZBOOKGROUP" MMC (VÖEN: 1702073941) fəaliyyətinə xitam verilərək "LİBRAFF" MMC "AZBOOKGROUP" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"AZHOBCO" MMC
VÖEN: 1701992931
"AZHOBCO" MMC (VÖEN: 1701992931) fəaliyyətinə xitam verilərək "LİBRAFF" MMC-yə (VÖEN: 1702192791) qoşulduğunu və "LİBRAFF" MMC "AZHOBCO" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

Əhmədova (keçmiş Eminova) Sevinc İdris qızına "BƏRƏKƏT İNŞAATCI 07" MTK tərəfindən 22.03.2005-ci il tarixində verilmiş müqavilə və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəh., Nərimanov ray., R.Qafur küçəsi "A" Bloku 3-cü mərtəbə 10 saylı ev.

# Gündə iki dəfə yemək sağlamlıqdır

## Türk professor: "4 saat ac qalaraq cavanlaşın"

*(Əvvəli səh: 8-də)*

**10 ildir gündə iki dəfə qidalandığını bildirən Yavuz Yörükoğlu sözlərinə davam edir: "Səhər yeməyim yoxdur, çay içirəm. Təbii ki, məndə də türk qəhvəsi var. İlk yeməyimi saat 13:00-da yeyirəm. Bu müddət ərzində zərrə qədər aclıq hiss etmirəm və özümü daha yüngül, gümrah hiss edirəm. Əvvəllər Amerika dəbinə uyğun olaraq az və tez-tez yemək deyilirdi.**



***"Digər bir səhv çörəyi istehlak etməməkdir. Lakin bütün elmi araşdırmalar deyir ki, gündəlik enerji ehtiyacımızın ən azı yarısı karbohidratlardan gəlməlidir. Çörək yemək bizi sağlam kompleks karbohidratlarla təmin edir"***

Deyirdilər ki, belə yeyiləndə çəki alınmır, maddələr mübadiləsi sürətlənir. Bunun heç bir elmi əsası yoxdur. Buna görə də pəhrizimiz və ya yeməklərin sayı ilə enerji səviyyəmiz arasında heç bir əlaqə yoxdur. Yeməklərimizi zülal, karbohidrat, sağlam yağlar və meyvə-tərəvəzlərlə balanslı şəkildə təşkil etsək, qida ehtiyacımızla bağlı heç bir problem olmayacaq".

Yavuz Yörükoğlu sağlam və uzun ömür sürməyin sirlərini paylaşdığı "30 gündə 10 il" adlı kitabında da izah etdiyi "aralıq oruc" üsulundan danışıb. "İnsanlar 14 və 16 saat ac qaldıqda, yəni aralıq oruc tutduqda gözləri qorxur", - deyən professor, "halbuki ortada qorxulacaq bir şey yox, insanlar var ki, zatən axşam saat 8-dən sonra yemək yemir, saat 12-də də yatır, səhər 8-də oyanırsa, deməli, 12 saat yemək yemir. Buna aclıq deyilmir. Səhər yeməyini buraxıb ilk yeməyini 13.00-da yeyirsə, deməli, 4 saatlıq aclıq dövrü var. Yəni acdırsa, ac qalma müddəti 4 saatdır. Bu müddət ərzində su, şəkərsiz çay və qəhvə içmək olar" deyə bildirir.

Səhər və günorta arasındakı bu 4 saatlıq aclığın son dərəcə təsirli və sağlam bir aclıq olduğunu vurğulayan Yavuz Yörükoğlu sözlərinə əlavə edir: "Bu saatlarda şəkər və insulin müqaviməti normallaşır. Əvvəlcə qanda olan trigliserid yağları, sonra isə bədənin digər orqanlarında yığılan yağları yandırırıq. Beləliklə, bu, çox sağlam bir prosesdir. Səhər 14 saat kalori qəbul etmədikdən sonra bədənimizdə otofagiya deyilən bir proses başlayır. Otofagiya hüceyrələrimizin içərisində baş verən təmizləmə, təkrar emal və cavanlaşma əməliyyatıdır. Müəyyən müddət ərzində kalori qəbul edilmədikdə, lizosomlar aktivləşir. Hüceyrədəki DNT-si zədələnmiş yağ damcılarını, köhnəlmiş zülalları və orqanoidləri yeyir və yerinə yenilərinin əmələ gəlməsini təmin edir. Bu vəziyyət otofagiya, yəni özünü yemək adlanır. İnsan orqanizmi həm genetik, həm də metabolik olaraq müəyyən dövrlərdə oruc tutmağa uyğunlaşır. Bu, faydalı və zəruri prosesdir.

"İnsanlar etdikləri qida səhvləri ucbatından arıqlamaqda çətinlik çəkirlər. Bu səhvlərdən birincisi, axşam saat 8-dən sonra yemək yeməkdir", - deyən Yörükoğlu: "Sözügedən saatdan sonra yeyilən qidalar meyvə, qoz-fındıq kimi sağlam qidalar olsa da, bu qidaları həzm edib yandırmaq mümkün deyil. Maddələr mübadiləsi bizim yandıra bilmədiyimiz kaloriləri alıb yağa çevirir. Başqa bir səhv süfrədən ac qalxmaqdır. Çox insan arıqlamaq və ya kökəlməmək üçün yeməkdən az yeyir. Doymamış yeyib qalxır, iki saat sonra isə ac qalır. Yatanda çox kalorili şirniyyat yeyir. Digər bir səhv çörəyi istehlak etməməkdir. Lakin bütün elmi araşdırmalar deyir ki, gündəlik enerji ehtiyacımızın ən azı yarısı karbohidratlardan gəlməlidir. Çörək yemək bizi sağlam kompleks karbohidratlarla təmin edir. Bu həm də məmnunluq və toxluq verir".

**Turan**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 3639






## Mişel Obama imicini dəyişdi

**Kimi, vaxtı dayandırmaq istəyir. Bəziləri vizual məmnunluq üçün plastik əməliyyata girir, bəziləri saçlarında kiçik bir dəyişikliklə tamam fərqli görünüş alır.**

Məqsədlərinin daha gözəl və cazibədar olmaq olduğu aydındır. Bəziləri plastik əməliyyat etdirmir və özünü illərin axınına buraxır. Məşhur adlardan birinin dəyişikliyi ilə tanış olaq...

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, həyatını prodüser və yazıçı kimi davam etdirən ABŞ-nin keçmiş birinci xanımı Mişel Obama qısa və düz saçları ilə imicini tamamilə dəyişib.

Mişel Obama Afrika köklərini ortaya qoyan qıvrım saçlı görünüşü ilə "Gətirdiyimiz işıq" adlı üçüncü kitabının təqdimatına qatılıb. Nazik hörükləri ilə də diqqət çəkən Obama, saçlarında maraqlı topuz düzəltdirib və onun yeni imici bəyənilib.

**Turan**

## İti öldürənin cəzası ağır oldu

### 6 aydan 4 ilə qədər həbs cəzası istənilib



**Konya Böyükşəhər Bələdiyyəsi Sahibsiz Heyvanlara Baxım və Reabilitasiya Mərkəzində çalışanın iti vəhşicəsinə öldürməsi ilə bağlı tələb edilən cəza müəyyənləşib.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, hadisəni törədən iki şəxsə "ev heyvanını və ya ev heyvanını qəsdən öldürmək" maddəsi ilə 6 aydan 4 ilə qədər həbs cəzası istənilib.

Konya Böyükşəhər Bələdiyyəsinin Sahibsiz Heyvanlara Baxım Evi və Reabilitasiya Mərkəzində çalışan şəxsin iti kürəklə vuraraq onun ölümünə səbəb olan görüntülər hiddət doğurub.

Ötən ay baş verən hadisədə sığınacaqdakı iti kəndirlə bağlayıb sürüyüblər. Müayinələr nəticəsində müəyyən edilib ki, kürəkli şəxs tibb işçisi Murat Bacak, iti sürüyən isə Sefa Çakmakdır.

Həbs edilən iki şəxs barəsində cinayət işi açılıb. Zorakılıq hadisəsi qeydə alınarkən orada olan digər işçilərin hamısı işdən çıxarılıb.

**Turan**

## Bakıda sidik kisəsi çöldə doğulmuş uşaq əməliyyat olundu

### 5 yaşlı uşaq çətin günləri geridə qoyub




**Sidik kisəsi çöldə doğulmuş körpə Bakıda əməliyyat olunub.**

**"Medicina" xəbər verir ki, Mərkəzi Klinikaya gətirilən 2 aylıq körpənin sidik kisəsi, sidik axarları çöldə olub, sidik kanalı olmayıb, cinsiyyət orqanı penisi açıq şəkildə olub.**

**Sidik kisəsi ekstrofiyası (epispadiya) diaqnozu qoyularaq çəkisi 3,5 kq olan körpə üzərində uşaq cərrahiyyəsinin ən çətin əməliyyatlarından olan sidik kisəsi ekstrofiyasının təmiri əməliyyatını uşaq cərrahı Fuad Hüseynov icra edib.**

**Uşağın hazırda 5 yaşı var, çətin günləri geridə qoyub, daimi kontrol altındadır.**

## Rok musiqi beyin şişlərində faydalıdır

### Alimlər bərk musiqiyə qulaq asmağın xəstələrə yaxşı təsir etdiyini sübut edib



**Saratov milli universitetin alimləri möhkəm, bərk musiqiyə qulaq asmağın beyin şişləri xəstələrinin müalicəsinə yaxşı təsir etdiyini sübut edib.**

**"Medicina" xəbər verir ki, belə musiqilərin beynin hematoensefalik baryerini açmağa və aşmağa səbəb olduğunu nəzərə aldıqda, beyin şişlərindən müalicə alanlarda kimyaterapiya və dərmanların beyinə yaxşı çatmasını təmin edir.**

**Belə ki, bu baryer çox möhkəm olub, mərkəzi sinir sistemi ilə qan sistemini ayırır.Bu baryer beyini zərərli toksinlərdən, maddələrdən, dərman vasitələrinin beyinə çatmasından qoruyur. Siçanlar üzərində aparılan eksperimentdə 2 saat ərzində səs gücü 100 db olan rok musiqi səsləndirilib. Nəticədə siçanlarda 40 dəqiqə sonra baryerin keçiriciliyinin artdığı görülüb. Alimlər planlaşdırır ki, bu metod Parkinson və Alsgeymer xəstələri üzərində sınasın, çünki onlarda da beyinə dərman vasitələrinin çatdırılması problemi ola bilər.**

## Polşanın ilk və yeganə kosmonavtı dünyasını dəyişib



**Polşanın ilk və yeganə kosmonavtı, Sovet İttifaqı Qəhrəmanı Miroslav Qermaşevski 82 yaşında vəfat edib.**

**Azərtac TASS agentliyinə istinadla xəbər verir ki, bu barədə onun kürəkəni, Avropa Parlamentinin polşalı üzvü Rişard Çarneçki tviter səhifəsində məlumat verib.**

**Onun Varşava xəstəxanasında dünyasını dəyişdiyi bildirilir.**

**Xatırladaq ki, Qermaşevski 1978-ci il iyunun 27-də sovet kosmik gəmisi "Soyuz-30" ilə kosmosa çıxıb. O, Yer atmosferindən kənarda 7 gün 22 saat 2 dəqiqə 59 saniyə qalaraq kosmosa səyahət edən 89-cu insan olub.**



# Gündə iki dəfə yemək sağlamlıqdır



### Türk professor: "4 saat ac qalaraq cavanlaşın"

**Artıq çəkini idarə etməyə kömək edir, şəkəri tarazlaşdırır, insulin müqavimətini qırır. Qandakı zərərli yağları yandıraraq enerji istifadəsini təmin edir və gənclik genlərini aktivləşdirir. Bütün bunlar gündə iki dəfə yemək yemək nəticəsində gerçəkləşir. Bəs, iki dəfə yemək sistemi necə həyata keçirilir? "Şərq" türk mediasına istinadən xəbər verir ki, türkiyəli professor Yavuz Yörükoğlu bütün detalları izah edib.**

5-6 il əvvələ qədər sağlam və balanslı qidalanmanın qızıl qaydasının 3 dəfə yemək və 3 qəlyanaltı olduğu vurğulanırdı. Ancaq hazırda gündə iki dəfə yeməyin daha düzgün olduğu iddia edilir. Bəs niyə? Nə dəyişdi ki, iki dəfə yeməklə orqanizmin daha sağlam olduğu qənaətinə gəlindi? Dünyada 1950-1960-cı illərə qədər gündə üç dəfə qidalanma pəhrizinin olmadığını vurğulayan Ürək-Damar Cərrahiyyəsi mütəxəssisi professor Yavuz Yörükoğlu bunları deyir: "O zaman I. və II. Dünya müharibələri başa çatdı, dünyada firavanlıq və bolluq dövrləri oldu, yeməklərin orta sayı ikidən üçə yüksəldi. Porsiyalar böyüdü, çatmadı, qəlyanaltılar müdaxilə etdi. Həmin illərdən sonra bütün dünyada piylənmə, şəkərli diabet və ürək-damar xəstəlikləri 3-5 dəfə artdı. Bu o deməkdir ki, bu pəhriz düzgün deyil. Elmi araşdırmalar bizə göstərir ki, ən sağlam qidalanma üsulu gündə iki dəfə yeməkdir. Çünki həddindən artıq qidalanmanın üzərinə zərərli qidalar əlavə olunduqda bədəndəki bütün tarazlıqlar alt-üst olur.

***"Digər bir səhv çörəyi istehlak etməməkdir. Lakin bütün elmi araşdırmalar deyir ki, gündəlik enerji ehtiyacımızın ən azı yarısı karbohidratlardan gəlməlidir. Çörək yemək bizi sağlam kompleks karbohidratlarla təmin edir"***



Orqanizmimiz gündə iki dəfə yemək yeməyə proqramlaşdırılıb və üç dəfə yemək çox olur. Xalq arasında "Səhər yeməyi günün ən vacib yeməyidir" kimi tanınır, lakin bu, doğru deyil. Elm bunu dəstəkləmir. Əgər çəkiniz, şəkəriniz və xolesteriniz yoxdursa və səhər yeməyi istəyirsinizsə, buyurun yeyin. Ancaq bu səhər yeməyindən heç bir xüsusi fayda gözləməyin. Tarixən insanlar gündə orta hesabla iki dəfə yemək yeyirlər. Mənim 67 yaşım var. Mənim yaşımda olanlar ana-atalarının, daha gənclər isə yaşlı nənə və babalarının şəkillərini tapıb baxsın. Görəcəksiniz ki, onların arasında demək olar ki, kök adam yox idi. O vaxtlar gündə orta hesabla iki dəfə yemək yeyirdilər. Artıq yemək utancverici sayılırdı, "boğazını murdarladı" hesab edirdilər. Deməli, ən sağlam qidalanma üsulu gündə iki dəfə yemək və arada heç nə yeməməkdir. Zaman-zaman ac qalmaq faydalıdır".

*(Davamı səh: 7-də)*

**Turan**



# İnanılmazdır...

### 12 yaşında filmdən təsirləndi

**Ən sərt havalarda yalın ayaqla gəzən, budaqdan budağa, bir ağacdan digərinə atlanan, göydələnlərə dırmanan Leo Urban (Leopold Hurbin) fransız Tarzan kimi məşhurlaşıb. Sosial şəbəkələrdə yayımlanan videoları isə izləyənlərin nəfəsini "kəsir".**

"Şərq" "Milliyet.com"a istinadən bildirir ki, fransız Tarzanın maraqlı həyat hekayəsi var. Leo Urban 1994-cü ildə Fransada dünyaya gəlib. Ailəsi sonra Andorraya köçüb və göl kənarında məskunlaşıblar. Göl kənarında yaşaması Leonun təbiətlə iç-içə böyüməsinə səbəb olub. Kiçik yaşlarından ağaclara dırmanmağı, sahilboyu sürətlə qaçmağı vərdişə çevrilib. Böyüdükcə vərdişləri daha da sabitləşib. Təbiətdən zövq almaqla yanaşı, təbiəti ram etməyi də öyrənib. 28 yaşlı Leo hazırda sosial medianın gündəmindədir və fransız Tarzan kimi tanınır. Amma Leonun tarzanlığına səbəb məşhur Amerika filmi Tarzanın qəhrəmanı olmayıb. Leo 12 yaşındaykən Fransa istehsalı "Yamakasi: Modern zamanların samurayları" filmini izləyib və öz gələcəyinə qərar verib. Bu filmdə gənclər ağaclara dırmanır, yüksəkliklərə rəğmən risk alaraq ölümə meydan oxuyurdular. Bu səhnələr gənc Leonun hafizəsində yer eləyib və o, fiziki güc və dayanıqlıq vərdişini inkişaf etdirən idman növüylə məşğul olmağa başlayıb. Bu qərarı onu dünya miqyasında fenomenə çevirib. Leo hər gün saatlarla fiziki hərəkətlər edib, idmanla məşğul olub. Meşədə, dağlarda, müxtəlif yüksəkliklərdə məşqlər edib. Bu gün sahib olduğu vərdişlərə həm də bəzi heyvanları kənardan izləməklə nail olub. "Heyvanları çox sevirəm və onlardan çox şey öyrənirəm. Heyvanların hərəkətlərini izləmək harada necə davranmalı olduğumu mənə öyrədir" söyləyən Leo Urban kiçik yaşında qəza da keçirib. Təhlükəli hərəkətlər edərkən yıxılıb, iki biləyi, dişləri, həm də körpücük sümüyü qırılıb. Başına gələnlərdən qorxub çəkinməyib, əksinə, bir daha səhv etməməyi öyrənib. Leo Urban hazırda Avropanın ən yüksək qalalarına yalın əl və ayaqla dırmanan idmançıdır. Bunlar asan başa gəlmir. Məsələn, Barselonadakı Glories Qalasına dırmanmaq üçün 5 il hazırlaşıb. Hazırda fransız Tarzanın instaqram izləyicilərinin sayı 674 min nəfərdir. Leo "ən yaxşı ayaqqabı, ayaqlarımızdır. Yalın ayaqla gəzməyin, qaçmağın çox faydaları var. Ayaqqabılarını at və bunun dadını çıxar", - deyib.

**Fransız Tarzan indi göydələnlərə dırmaşmaqla məşhurlaşıb**

**Məlahət**

## İndoneziyada turistlərə qadağa

### Ölkənin yeni cinayət məcəlləsi əcnəbilərin ölkəyə səfərinin qarşısını ala bilər



**İndoneziyada nikahdankənar cinsi əlaqəni cinayət hesab edən qanun layihəsi parlamentdən keçib. Evlilikdən kənar cinsi əlaqə ilə yanaşı, doğuşa nəzarəti təşviq etmək, söyüş söymək və dövlət məmurlarını təhqir etmək də cinayət sayılırdı.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, turizmdən xeyli gəlir əldə edən İndoneziya bununla bağlı yeni qayda qoyub. "İndoneziyanın yeni cəza məcəlləsinin müddəalarına əsasən, Bali adasına gələn və ya yaşayan ziyarətçilər narahat olmayacaq", - Bali qubernatoru açıqlamasında bildirib. Qubernator Vayan Koster, adadakı turizm bölgələrini ziyarət edənlərdən nikah şəhadətnaməsi tələb olunmayacağını bildirib.

Dünyanın əsas turistik yerləri kimi, Bali də COVID-19 pandemiyası zamanı böyük iqtisadi təlatümlər yaşadı. Pandemiya səngidiyi üçün beynəlxalq səyahətçilər məşhur tətil adasına qayıdırlar. Bali turizm rəsmiləri bildiriblər ki, ölkənin yeni cinayət məcəlləsi əcnəbilərin ölkəyə səfərinin qarşısını ala və ölkənin qlobal reputasiyasına xələl gətirə bilər. Səlahiyyətlilər daha əvvəl zina, nikahdan əvvəl birgə yaşama və dindən dönməyi qadağan edən yeni qanunun əcnəbilərə və turistlərə də şamil ediləcəyini açıqlamışdı. Bali və turizmin İndoneziya iqtisadiyyatındakı əhəmiyyətini nəzərə alsaq, adadakı turistlərin yeni qanunlardan təsirlənməyəcəyini söyləmək səhv olmaz. Bununla belə, yüz milyonlarla indoneziyalı üçün faktlar narahatlıq doğurur.

**Turan**

## Ürək emojisi ilə qarşılıq verdi

### Fransalı kikboksçunun Hadisəyə yazdığı şərhlər diqqət çəkdi




**Türkiyəli müğənni Hadisə sonuncu paylaşımına gələn şərhlərlə diqqət çəkib.**

Axşam.az xəbər verir ki, ifaçının axırıncı paylaşdığı fotolara fransalı kikboks üzrə çempion Siril Benzakenin şərhlər yazması olub. Maraqlı məqamlardan biri də Hadisənin şərhləri cavabsız qoymaması olub. Hətta müğənni onun fotosuna verdiyi reaksiyaya ürək emojisi ilə qarşılıq verib.

*Qeyd edək ki, Hadisə sentyabrın 30-da Mehmet Dinçərlərdən boşanıb.*